# XOCALIYA ƏDALƏT

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 44 (8637) CÜMƏ, 26 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İnsanlığa qarşı amansız terror

## Vətən müharibəsindəki Qələbə ilə Xocalı soyqırımı qurbanlarının ruhu təsəlli tapdı

**Bəşəriyyətə və insanlığa qarşı ən böyük cinayətlərdən olan Xocalı faciəsindən 29 il ötür. XX əsrin müxtəlif vaxtlarında ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci il fevralın 25-dən 26-na keçən gecə üzləşdi. Sovet ordusunun köməyi ilə Xocalını işğal edən ermənilər şəhərin sakinlərinə qarşı kütləvi qətliam həyata keçirdilər. 613 nəfər, o cümlədən 106 qadın və 63 uşaq qəddarlıqla qətlə yetirildi, 1275 nəfər əsir aparıldı, 150 nəfər itkin düşdü.**

Xocalı sakinlərinə qarşı soyqırımı aktı Dağlıq Qarabağın işğalı zamanı Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasətinin növbəti mərhələsi idi. Hadisələrin gedişatını bir qədər aydın izləsək, görərik ki, şəhərin işğalı xüsusi plan əsasında həyata keçirilib. Belə ki, 1991-ci ilin oktyabr ayından şəhər ermənilər tərəfindən blokadada saxlanılırdı. Həmin ayın 30-dan Azərbaycanın digər bölgələri ilə avtomobil əlaqəsi kəsilən Xocalının yeganə nəqliyyat yolu hava xətti oldu. Şuşa şəhərinin səmasında mülki vertolyotun vurulmasından sonra bu əlaqə də kəsildi. Beləliklə, 1992-ci il yanvarın 28-də sonuncu vertolyotu qəbul edən Xocalı tam mühasirə şəraitində yaşayırdı.

Ermənilər tərəfindən Xocalıya hücum edilməsinin başlıca səbəbi həm də şəhərin strateji mövqeyi idi. 7 mindən artıq əhalisi olan bu yaşayış məntəqəsi Qarabağ dağ silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşməklə böyük əhəmiyyət kəsb edirdi. Qarabağdakı yeganə aeroportun da burada yerləşməsi şəhərin strateji əhəmiyyətini artırırdı.

Xocalı faciəsi üzərində hakimiyyətə yiyələnən AXC-Müsavat iqtidarı dövründə soyqırımı barədə danışılsa da, son nəticədə hər şeyin üstü örtüldü. Onlar faciənin günahkarlarının adlarının üstündən sükutla keçdilər. Həmin dövrdə soyqırımına dövlət səviyyəsində hüquqi-siyasi qiymət verilmədi. 2002-ci ildə faciənin onuncu ildönümü ilə əlaqədar Ulu Öndər Heydər Əliyev xalqa müraciətində deyirdi: "Bütün bu qanlı hadisələrin qarşısının alınmamasında, o cümlədən Xocalı faciəsinin baş verməsində, şəhərin təpədən dırnağa qədər silahlanmış amansız düşmənlə üz-üzə müdafiəsiz qalmasında erməni qəsbkarları ilə bərabər, Azərbaycanın ozamankı rəhbərliyi, habelə hakimiyyət uğrunda hər cür yolverilməz vasitələrlə mübarizə aparan müxalifət qüvvələri də birbaşa məsuliyyət daşıyırdılar. Əslində o zaman respublikaya rəhbərlik edən şəxslər şəhərin müdafiəçilərinə təcili kömək göstərmək, faciə barədə dünya ictimaiyyətinə geniş məlumat vermək, beynəlxalq aləmə həyəcan təbili çalmaq əvəzinə, Xocalı dəhşətlərinin həqiqi miqyasını xalqdan gizlətməyə cəhd etmiş, tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik nümayiş etdirmişlər. Hətta sonralar da Xocalı faciəsinin mahiyyətini açmaq, onun günahkarlarını ifşa etmək, dünya ictimai fikrinə çatdırmaq üçün heç bir iş görülməmiş, əksinə, bu faciə hakimiyyətlə müxalifətin qarşılıqlı ittihamları və siyasi mübarizəsi vasitəsinə çevrilmişdir".

Xocalıda baş verənlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Lakin xalq Xocalı kədəri, hüznü yaşadığı vaxtda faciənin ağırlığı ozamankı Azərbaycan hakimiyyəti tərəfindən lazımi şəkildə qiymətləndirilmədi. Çünki bu, 1992-ci ildə iqtidarda olanlarla hakimiyyətə can atanların arasında baş verən hərc-mərcliyin, respublikada anarxiyanın, habelə Dağlıq Qarabağ və onun ətrafında baş verən oyunların məntiqi nəticəsi idi.

*Ardı 5-ci səh.*

# Yenidən qurulan pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılışında iştirak edib.

*Bax: səh. 2*

# Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib. AZƏRTAC xəbər verir ki, dövlət başçısı kompleksdə yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, bu kompleksdə doqquzmərtəbəli 30 bina tikilib. Ümumilikdə 1512 mənzildən ibarət kompleks bütün zəruri sosial infrastrukturla təchiz edilib. Ərazidə məktəb, uşaq bağçası, klub-icma mərkəzi inşa olunub. Dövlət başçısının bu ilin yanvarında imzaladığı sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil, fərdi evlə təmin ediləcək.

Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev şəhid ailələrinin üzvləri və müharibə əlilləri ilə görüşdü.

Dövlət başçısı görüşdə çıxış etdi.

### Prezident İlham Əliyevin çıxışı

- Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Bu münasibətlə sizi təbrik edirəm. Burada otuz bina inşa edilibdir. Binaların hamısı müasir səviyyədə, yüksək keyfiyyətlə tikilib, mənzillər də çox genişdir, işıqlıdır. Uşaq bağçası, 1200 şagird yerlik məktəb inşa edilib. Yəni yaşayış üçün bütün imkanlar var və bu münasibətlə sizi ürəkdən təbrik edirəm. Müharibədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib.



Bu gün, eyni zamanda, Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı da olub. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilibdir. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər.

Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir. Mənim bu sahədəki siyasətim birmənalıdır. Son 17 il ərzində şəhid ailələri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bugünə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilibdir. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaqdır.

*Ardı 2-ci səh.*

# Vaksinasiya edilənlərin sayının artması koronavirus infeksiyasının yayılmasının qarşısını alacaq



Dünyada koronavirusa yoluxma davam edir. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, COVID-19-a yoluxanların sayı 113 milyonu ötüb. Virusdan 2 508 913 xəstə vəfat edib, 88 713 439 nəfər sağalıb.

Virusa yoluxma sayına görə ilk beşlikdə olan dövlətlərdən birincisi yenə də ABŞ-dır (28 974 623 nəfər). Sonrakı yerləri Hindistan (11 046 914 nəfər), Braziliya (10 326 008), Rusiya (4 200 902 nəfər) və Böyük Britaniya (4 144 577 nəfər) tutur. Sərhəd qonşularımız arasında koronavirusdan ən çox ölüm Rusiyadan sonra İranda (59 736 nəfər) və Türkiyədə (28 285 nəfər) qeydə alınıb.

Ölkəmizdə koronavirusa yoluxan 233 644 nəfərin 3 206-sı dünyasını dəyişib, 228 157-si sağalıb. Təcrübə göstərir ki, son günlər ölkəmizdə yeni növ koronavirusa qarşı kompleks tədbirlər görülməsi sayəsində müşahidə olunan müsbət tendensiyanın davamlılığı, yoluxma və ölüm hallarının azalması üçün ehtiyatı əldən vermək olmaz.

*Ardı 6-cı səh.*

# Ermənistanda hərbi qiyam başladı

## Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə caniləri indi Paşinyana qarşı çevriliş edirlər

Ermənistanda müharibədəki məğlubiyyətdən sonra gərginləşən ictimai-siyasi vəziyyət ölkədə xaotik vəziyyət yaradıb. Mövcud durumdan istifadə edən keçmiş hərbi xuntanın revanş istəyi isə vəziyyəti daha da gərginləşdirməkdədir. Əsas niyyət iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaq, güc yolu ilə olsa belə hakimiyyəti qəsb etməkdir.

Görünən odur ki, Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə caniləri indi də hərbi qiyam başlatmaqla Paşinyanı hakimiyyətdən devirmək niyyəti güdürlər. Belə ki, baş qərargah rəisi Onik Qasparyan, bütün müavinləri, şöbə müdirləri və böyük hərbi birləşmələrin komandirləri bəyanat imzalayaraq baş nazirin istefasını tələb ediblər. Paşinyanın isə Qasparyanı istefaya göndərməsi vəziyyəti daha da gərginləşdirib.

### Paşinyan öz tərəfdarlarını meydana səslədi

40-dan çox yüksək rütbəli hərbçi tərəfindən imzalanan bəyanatda bildirilir ki, baş qərargah Paşinyanın uzaqgörən olmayan və əsassız addımlarına, xüsusən də baş qərargah rəisinin birinci müavininin vəzifəsindən azad edilməsinə qəti surətdə etiraz edir. Hərbçilər hesab edirlər ki, Tiran Xaçatryanın vəzifədən kənarlaşdırılması Ermənistanın milli və dövlət maraqları nəzərə alınmadan, yalnız şəxsi ambisiyalara əsaslanaraq verilib. "İndiki çətin şərtlərdə belə bir qərar dövlətə qarşı yönələn və məsuliyyətsiz bir addımdır" deyə açıqlamada qeyd edilir.

*Ardı 6-cı səh.*

# Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir

*Əvvəli 1-ci səh.*

Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib.

Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib. Onu da bildirməliyəm ki, Ermənistan ordusunda da itkilər olub və İkinci Qarabağ müharibəsində müxtəlif rəqəmlər səslənir. Bizdə olan məlumata görə, təqribən 6-7 min işğalçı məhv edilibdir. Onların birinin də ailəsinə Ermənistan dövləti heç bir yardım etməyib. Ümumiyyətlə, Ermənistanda bizdə olan proqram mövcud deyil. Müharibədə həlak olmuş insanların yaxınlarına nəinki ev, bir daxma da verilmir. Hər şey müqayisədə ölçülür. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.









İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz olub. Mən o cümlədən bunların arasında mülki vətəndaşları da nəzərdə tuturam. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Allah sizə, onların yaxınlarına səbr versin. Şəhidlərimizin ruhu qarşısında baş əyirik. Bildirməliyəm ki, şəhidlərimizin qanı yerdə qalmayıb. Biz Birinci Qarabağ müharibəsinin şəhidlərinin, İkinci Qarabağ müharibəsinin şəhidlərinin qanını aldıq. Düşməndən intiqamımızı aldıq, ərazi bütövlüyümüzü bərpa etdik və şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq.

Birinci Qarabağ müharibəsində 12 mindən çox şəhidimiz olmuşdur və 4 minə yaxın hərbçimiz itkin düşmüşdür, təqribən 16 min itkimiz olmuşdur və torpaqlarımız işğal altına düşmüşdür. İkinci Qarabağ müharibəsində şəhidlərimizin sayı müharibənin miqyasına görə həddindən artıq azdır. Əlbəttə, hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir. Hər bir insanın həyatı qiymətsizdir. Ancaq nəzərə alsaq ki, genişmiqyaslı müharibə aparılıb və ilk günlərdən əks-hücum əməliyyatı əslində hücum əməliyyatına çevrilmişdir. Ermənilərin otuz il ərzində qurduqları istehkamları, 5-6 xətt müdafiə istehkamlarını və o bölgənin relyefini nəzərə alsaq, tam qətiyyətlə deyə bilərik ki, biz istədiyimizə az itkilərlə nail olduq. Hətta dünyanın aparıcı ölkələrinin hərbi ekspertləri təəccüb edirlər ki, biz torpaqlarımızı işğalçılardan belə az itkilərlə azad etdik. Nəyə görə? Çünki bütün əməliyyatlar planlaşdırılanda ən vacib amillərdən biri itkilərin az olması idi. Hər gün əməliyyat planını təsdiq edərkən o amil ön planda idi.

Müharibə itkisiz olmur. Bizim müharibəmiz azadlıq müharibəsi idi, ədalətli müharibə idi. Ermənistan işğalçılıq müharibəsi aparırdı. Haqq-ədalət bizim tərəfimizdədir. Ona görə bizim hərbçilərimiz şəhidlik zirvəsinə ucalaraq Vətən qarşısında öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirmişlər. Minlərlə hərbçimiz yüksək dövlət orden və medalları ilə təltif edilmişdir. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı hər bir azərbaycanlı üçün örnək olmalıdır, gənc nəsil üçün örnək olmalıdır və olacaq.

Biz ədaləti bərpa etdik, otuz il ərzində işğal altında olan torpaqları qaytardıq və dövlətimizin, xalqımızın gücünü göstərdik. Müharibənin ilk günündən üstünlük bizim tərəfimizdə idi. Düşmən demək olar ki, panikaya, isterikaya qapılmışdı. Ermənistan ordusunda onların özlərinin etirafına görə 10 mindən çox fərari olmuşdur. İndi Ermənistan dövləti bilmir ki, bu fərariləri necə mühakimə etsin. Çünki bu da böyük problemlərə gətirib çıxara bilər. Azərbaycan Ordusunda bir nəfər də fərari olmamışdır. Halbuki Birinci Qarabağ müharibəsində fərarilər olub.

Birinci Qarabağ müharibəsində bizim qəhrəman övladlarımız şücaət göstərmişdilər. Ancaq o vaxt Azərbaycanın başında olan insanlar lazımi tədbirlər görə bilməmişdilər. Xüsusilə AXC-Müsavat cütlüyünün dövründə Şuşanın, Laçının, Kəlbəcərin düşmənə verilməsi böyük xəyanət idi və faktiki olaraq müharibənin sonrakı gedişatını şərtləndirdi. Çünki Ermənistanla Dağlıq Qarabağ arasında coğrafi bağlantı yaradılmışdır və ondan sonra digər torpaqların işğalı üçün ermənilərin çox böyük üstünlüyü yaranmışdır.

O vaxt faktiki olaraq bizim bölgələrimizin müdafiəsi demək olar ki, özünümüdafiə qüvvələrinin öhdəsinə buraxılmışdı. Nizami ordu yox idi. Hətta insanları Kəlbəcərdən, Laçından çıxarmaq üçün lazımi tədbirlər görülməmişdi, ona görə də əhali arasında böyük itkilər olmuşdu. Sabah Xocalı soyqırımının 29-cu ildönümüdür. Xocalı soyqırımı insanlığa qarşı törədilmiş cinayətdir. Bu cinayəti Ermənistan dövləti törədib. Xocalı qurbanlarının da qanı İkinci Qarabağ müharibəsində alındı.

Əlbəttə ki, biz bütün bu illər ərzində müharibəyə hazırlaşırdıq. Bunu heç gizlətmirdik. Çünki bizim torpaqlarımız işğal altında idi və biz görürdük ki, bu məsələnin sülh yolu ilə həlli mümkün deyil. Artıq son illər ərzində buna tam əmin idik. Ermənistan rəhbərliyinin davranışı, təxribat xarakterli çıxışları, addımları bizi və deyə bilərəm ki, beynəlxalq ictimaiyyəti əmin etmişdir ki, bu münaqişənin sülh yolu ilə həlli mümkün deyil. Halbuki bu məsələ ilə məşğul olan Minsk qrupuna həmsədrlik edən ölkələrin yüksəkvəzifəli rəsmi nümayəndələri daim təkrarlayırdılar ki, münaqişənin hərbi həlli yoxdur. Amma biz görürdük ki, münaqişənin sülh yolu ilə həlli yoxdur. Çünki əks-təqdirdə 30 il ərzində bu məsələ həll olunardı. Deməli, buna maraq yoxdur, yaxud da ki, belə nə hərb, nə sülh vəziyyəti kimisə qane edirdi. Kimisə qane edirdi ki, Azərbaycan xalqı 30 il ərzində belə vəziyyətdə yaşasın. Kimisə qane edirdi ki, bizim torpaqlarımız işğal altındadır və sanki Azərbaycana bu, müəyyən təzyiq mexanizmi kimi qəbul edilirdi. Bizi inandırmağa çalışırdılar ki, indi reallıq yaranıb, 30 il ərzində bu reallıq mövcuddur və Azərbaycan bu reallıqla barışmalıdır. Mən isə deyirdim ki, heç vaxt biz bu vəziyyətlə barışmayacağıq. Mən deyirdim, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci qondarma erməni dövləti yaradılsın və imkan vermədik. Bütün gücümüzü səfərbər etdik, bir çox illər ərzində ardıcıl siyasət apardıq, həm beynəlxalq müstəvidə, həm iqtisadi sahədə, həm qonşu ölkələrlə münasibətlərdə, regional layihələrin icrasında və əlbəttə ki, ordu quruculuğunun təkmilləşdirilməsi üçün böyük işlər gördük. Eyni zamanda gənc, vətənpərvər, Vətəni hər şeydən çox sevən nəsil yetişdi. Bax, bu nəsil torpaqlarımızı azad etdi. Şuşada Cıdır düzündə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, mən 2003-cü ildə hakimiyyətə gələndə bu gün 25-30 yaşında olan insanlar uşaq idi. Biz onları vətənpərvərlik ruhunda, dövlətə sədaqət ruhunda yetişdirdik və onlar bizim torpaqlarımızı işğalçılardan azad etdilər. O cümlədən işğal edilmiş torpaqlarda heç vaxt olmayan, amma əslən o torpaqlardan olan gənclər torpaqları uğrunda aslan kimi vuruşurdular. Bütün Azərbaycan xalqı, Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri bir yumruq kimi birləşərək düşməni məğlub edib və torpaqlarımızı işğaldan azad ediblər. Bu, tarixi hadisədir. Azərbaycan tarixində buna oxşar parlaq qələbə olmamışdır. Azərbaycan bütün dünyaya öz gücünü göstərdi, xalqımızın iradəsini göstərdi. Bir daha bütün dünya gördü ki, əgər iradə varsa, güc varsa, xalq-iqtidar birliyi, əzmkarlıq və cəsarət varsa, haqq-ədalət öz yerini tapır. Biz bunu nümayiş etdirdik.

İndi baxın, Ermənistan nə gündədir. Orada böhran yaşanır, gündə toqquşmalar, həbslər baş verir, demokratik əsaslar demək olar ki, tamamilə pozulub. Ermənistan heç vaxt bu cür acınacaqlı vəziyyətdə olmamışdır. Onları bu vəziyyətə salan onların rəhbərləridir. Həm 20 il Ermənistana başçılıq edən xunta rəhbərləri - Köçəryan-Sarkisyan xuntası, həm ondan sonra gələn hakimiyyət. Sonra gələn hakimiyyətin qarşısında seçim var idi - ya işğalçılıq siyasətini davam etdirəcək və özünü bədbəxt edəcək, ya da ki, öz xoşu ilə bizim torpağımızdan çıxacaq. Bu şansı biz verdik və mən hətta müharibə dövründə dəfələrlə demişdim ki, bizə tarix versinlər, onlar hansı tarixdə hansı bölgələrdən çıxırlar və biz müharibəni dayandırırıq. Belə də oldu, tarix verilən kimi müharibə dayandı. Ancaq onlar məcbur olub bu tarixi bizə verdilər, öz xoşuna yox. Biz artıq onların ordusunu, Ermənistan ordusunun canlı qüvvəsini məhv edəndən, onlar diz çökəndən sonra buna məcbur oldular və kapitulyasiya aktına imza atdılar və bizim qələbəmiz təsdiq olundu.

*Ardı 3-cü səh.*

# Yenidən qurulan pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər







AZƏRTAC xəbər verir ki, dövlət başçısı pansionatda yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, bu pansionat Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə 2003-cü ildə istifadəyə verilib. Ötən il isə burada əsaslı təmir işləri görülüb. Yenidən qurulan 250 çarpayılıq pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilər. Bu tibb müəssisəsində ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin xəstəliklərdən əziyyət çəkənlərə xidmət göstəriləcək. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. Burada müalicə alanların reabilitasiyasında müasir metodika ən qabaqcıl texnologiyanın tətbiqi ilə paralel təşkil olunacaq.





Pansionatda Abşeronun iqliminə xas olan klimoterapiya bu müalicə ocağının əsas özəlliklərindən biridir. Burada mövsümə uyğun iqlimlə müalicə imkanları ilə yanaşı, fizioterapiyanın da demək olar bütün sahələri əhatə edilib.

Bildirilib ki, postmüharibə dövründə bu tip müalicə mərkəzlərinin əhəmiyyəti xüsusi nəzərə çarpır. Müalicə xidməti ilə bərabər, əlilliyi olan şəxslərin sosial statusunun bərpası, cəmiyyətə inteqrasiyası əsas məsələlərdəndir.

Bu il istifadəyə verilməsi gözlənilən Şamaxı Psixonevroloji Sosial Xidmət Müəssisəsi, Qəbələ və Şəmkir Uşaq Reabilitasiya mərkəzləri də daxil olmaqla, ümumilikdə reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq, 2018-ci ildə isə bu potensial cəmi 10 min nəfərə bərabər idi.

Müharibədən sonrakı dövrdə 210 qaziyə 1220 reabilitasiya vasitəsi verilib, 15 hərbçi yüksək texnologiyalı protezlə təmin edilib. Vətən müharibəsində yaralanmış şəxslərin 90 faizi ilə artıq evlərində görüş keçirilib. Amputasiyası olan 301 nəfərdən 109-nun protez ehtiyacları müəyyən edilib. 2021-ci ildə onların protezlə təmin olunması planlaşdırılır.

# Dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir



Əvvəli 2-ci səh.

Onsuz da biz bütün torpaqları azad edəcəkdik. Ancaq itkilər çox ola bilərdi, xüsusilə Kəlbəcər, Laçın istiqamətində. Artıq qış gəlmişdi, qar yağmağa başlamışdı, orada bizim itkilərimiz çox ola bilərdi. Ona görə düşməni hərbi yolla məğlub etdik, torpağımızdan qovduq, Şuşa şəhərini və digər şəhərləri işğalçılardan azad etdik. Ondan sonra Laçın, Kəlbəcər rayonlarını və Ağdam rayonunun bir hissəsini siyasi yollarla qaytardıq və artıq bizim nəzarətimizdədir.

Müharibədən sonrakı dövrə gəldikdə indi hər kəs görür ki, Azərbaycanda inkişaf gedir, quruculuq işləri başlayıb, Ermənistanda isə böhran hökm sürür, bir-birilərini ittiham edirlər, bir-birilərini didirlər. Hər zaman xarici nümayəndələr bizə deyirdilər ki, Ermənistan cəmiyyəti birlik nümayiş etdirir və Ermənistan cəmiyyətində milli birlik var. İndi biz görürük haradadır bu milli birlik. Bu məğlubiyyətdə bir-birilərini ittiham edirlər, bir-birilərini günahlandırırlar, kütləvi həbslər baş verir. Amma nədənsə demokratiyadan dəm vuran bəzi qeyri-hökumət təşkilatları və bəzi hökumətlər buna göz yumurlar. Necə olur Ermənistanda müxalifət gündəlik formatda əzilir, dağıdılır, həbs edilir, öldürülür, amma buna heç kim reaksiya vermir. Bu, nəyi göstərir? Necə deyərlər, həmin 30 illik tarix bir daha əks etdirir ki, biz bu qələbəni təkcə Ermənistan üzərində qazanmamışıq. Bizə qarşı mütəşəkkil və güclü dairələr birləşib bizim torpağımızı əbədi işğal altında saxlamaq istəyirdilər. Ermənistan sadəcə olaraq bir alət idi, bir vasitə idi. Biz bunu dağıtdıq. Biz bu məkrli siyasəti alt-üst etdik və haqq-ədaləti bərpa etdik.

Ermənistan rəhbərliyi indi gileylənir ki, onlara verilən silahlar yararsız idi. Bilirsiniz, kimisə günahlandırmaq hər şeydən asandır. Ancaq onu da deməlidirlər ki, bu silahlar onlara pulsuz verilmişdir, müftə verilmişdir. Özü də bir il yox, iki il yox, 30 il ərzində onları bizə qarşı silahlandırırdılar. Biz indi bütün imkanlardan istifadə edib bölgədə gedən prosesləri diqqətlə izləyirik, bizim imkanlarımız var, informasiya mənbələrimiz kifayət qədər çoxdur. Biz bilirik müharibə dövründə Ermənistana nə qədər pulsuz silah verildi, müharibədən əvvəl nə qədər verildi. İyul toqquşmasından dərhal sonra, iyulun 17-dən başlayaraq müharibənin son gününə qədər Ermənistana gündə bir neçə təyyarə pulsuz silah gətirirdi. Həmin o "İskəndər" raketlərini Ermənistan pulla alıb? Pulsuz alıb. "Elbrus", "Toçka-U", "Skad" raketlərini pulla alıb? Pulsuz alıb. "S-300", hansı ki, biz yeddisini məhv etmişik, onlar da pulsuz verilib, tanklar da, toplar da, digər hava hücumuna qarşı sistemlər də. Biz onların hamısını məhv etmişik. Ermənistan ordusu yoxdur, bitib, qurtarıb.

Amma bir neçə gün əvvəl eşitmişəm ki, indi onların müttəfiqləri Ermənistan ordusunu yenə də canlandırmaq istəyirlər, onları modernləşdirmək istəyirlər. Nəyə görə? Kimə qarşı? Müharibə başa çatıb. Əgər kimsə revanşist fikirlərlə yaşayırsa, bax, bu yumruğu görəcək, bu, yerindədir və bizim səbrimizi sınamasınlar. Ermənistan ordusu bitdi, yoxdur və olmamalıdır. Belə bir faşist dövlətdə ordu olmamalıdır. Biz heç vaxt imkan verməik ki, bizim üçün hər hansı bir təhlükə yenidən yaransın, yaxud da ki, azad edilmiş torpaqlara qayıdacaq vətəndaşlarımız hər hansı bir risk hiss etsinlər.

Biz bütün işlərə nəzarət edirik. Biz ordumuzu bundan sonra da gücləndirəcəyik. Yeni kontraktlar imzalanıb, ən müasir silahlar alınır, artıq onlar gətirilir. Dünyada hansı müasir silah varsa, onlar da artıq kontraktlanıb və Azərbaycana gətiriləcək. Müharibə eyni zamanda ordunun gələcək təkmilləşdirilməsi məsələlərini də üzə çıxarıb. Aparılacaq islahatlar daha da çevik, daha da döyüşkən və döyüş qabiliyyəti yüksək olan ordunun yaranmasına gətirib çıxaracaqdır.

Müharibədən sonra bu gün dünyada yeni reallıq yaranıb. Bu reallığı biz yaratmışıq, Azərbaycan xalqı yaradıb. Biz iradə göstərmişik, güc göstərmişik. Bəli, biz gözləmişik. Həyat göstərdi ki, ən düzgün an seçilmişdir. İyul ayında bizə qarşı sərhəddə təxribat törədiləndə də biz əks-hücuma keçə bilərdik. Ancaq o vaxt mən əks-hücum əməliyyatını dayandırmışdım. Biz erməniləri öz torpağımızdan qovub, düz sərhədə gəlib, sərhədin o tərəfinə keçmədik. Bizi buna təhrik etmək istəyirdilər. Bizi təxribata çəkmək istəyirdilər. Əgər biz o vaxt - iyul ayında Ermənistan ərazisinə keçsəydik, əgər mən o vaxt ordumuzu dayandırmasaydım, vəziyyət başqa cür ola bilərdi. Bizi əslində buna təhrik edirdilər, təxribata təhrik edirdilər. Ermənistandan atılan raketlər Gəncənin, Bərdə, Tərtər, Goranboy, Naftalan, Ağdam, Füzuli rayonlarımızın dağılmasına gətirib çıxarmışdır. Onların atdığı raketlərin biri Xızıya gəlib çatmışdır. Görün, Xızını döyüş bölgəsindən neçə kilometr məsafə ayırır. Ona görə bu təxribat planları var idi və düzgün an, düzgün məqam seçildi və düzgün addımlar atıldı. Ermənistan ordusunu 44 günə məhv etdik, onların əsrlərboyu yaratdıqları mifləri darmadağın etdik. Göstərdik ki, müzəffər xalq Azərbaycan xalqıdır. Göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Onlar bizim qabağımızda diz çökdülər. Onlar heç vaxt belə rəzil vəziyyətdə olmamışdılar. Kimsə onları cəzalandırmalı idi, yoxsa yox? Bütün dünyaya meydan oxuyurlar. Bütün dünyaya əsassız tələblər irəli sürürlər. Sanki hər kəs bunlara kömək etməlidir, bunları müftə yedizdirməlidir, içizdirməlidir, silahla təmin etməlidir. Bir zəli kimi yapışıblar dünya ölkələrinin vücuduna. Bizim torpağımızı işğal edib, insanları evsiz-eşiksiz qoyub, tarixi abidələrimizi, məscidlərimizi dağıdıb. Ondan sonra da deyib ki, bu, erməni torpağıdır. Kimsə bunları cəzalandırmalı idi, yoxsa yox? Kimsə onları çökdürməli idi, yoxsa yox? Biz bunu etdik. Tarixi qələbədir, tarixi nailiyyətdir. Bir daha demək istəyirəm ki, bu qələbəni biz şəhidlərimizin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbr versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə əbədi yazdırdı.

Mən sizə öz hörmətimi bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam.

* * *

Şəhid Milli Qəhrəman İlqar İsmayılovun anası **Fatma QOCAYEVA** dedi:

- Hörmətli cənab Prezidentimiz, mən Birinci Qarabağ müharibəsinin şəhid Milli Qəhrəmanı İlqar İsmayılovun 90 yaşlı anasıyam. Mən bütün şəhidləri öz övladım hesab edirəm. Ona görə də bütün şəhidlərin valideynləri adından, öz adımdan Sizə minnətdarlıq bildirmək istəyirəm ki, Siz Qarabağın azadlıq sevincini bizə yaşatdınız. Otuz il gözləsək də, o həsrətdən bizi qurtardınız. Bu, böyük fəxrdir. Şəhid ailələri də, şəhid valideynləri də bunun üçün Sizə minnətdardır. Şəhidlərin də ruhu şad oldu, torpaqda rahat uyudular. Onu da qeyd edim ki, Siz Şuşanın azad olunmasını elan edərkən, "Şuşa sən azadsan!" deyərkən elə bir azərbaycanlı tanımıram ki, onun gözündə sevinc yaşı olmasın. Bu, bizim fəxrimiz oldu.

Qeyd etmək istəyirəm ki, Qubadlının iki polisi - İlqar İsmayılov, Əli Məmmədov bir çox kəndləri azad edə-edə Laçın dağlarının ən yüksək zirvəsi olan Qızartı yüksəkliyinə çıxıb Laçın dəhlizini bağlamaq tapşırığı almışdılar. O yüksəkliyə çıxanda onlar məşhur idmançı polislər idi. Çox ağır döyüşlə rastlaşıblar. Ermənilər əvvəlcədən oranı zəbt ediblərmiş. Onlar mühasirəyə düşüblər. Erməni başbilənləri onlara güllə atmayıb. "Onlar bizə diri lazımdır" deyəndə komandir olan İlqar deyib ki, uşaqlar, soyuqqanlı olun. Bir atəşlə hamımız onları yerə sərməliyik. Sağ qalanların dediyinə görə, qumbara atmaqla, tüfənglə, avtomatla, bir çox silah-sursatla 48 ermənin meyitləri yerə sərilib. Axırda İlqar deyib ki, biz bunlara təslim olmamalıyıq. Bıçaqları çıxarın, əlbəyaxa döyüşə keçək. Orada əlbəyaxa döyüş gedib, bu cəsur oğullar şəhid olublar. İndi Şuşa, Laçın azad olunandan sonra o dağlara baxıb deyirəm, orada bitən qırmızı lalələr, sizə qurban olum. Sizin rənginiz ona görə qırmızıdır ki, o igidlərin qanından su içmisiniz. İndi Prezidentimizin sayəsində, şəhidlərin qanı bahasına torpaqlarımız azaddır, Şuşa da, Laçın da bizimdir. Bizim şəhidlərin ruhu bir də ona görə şaddır ki, cənab Prezident, Siz şəhid ailələrinə böyük qayğı ilə yanaşırsınız, onların hər bir ehtiyacını çox həvəslə ödəyirsiniz. Bu gün bizi buraya dəvət edib ehtiyacı olan şəhid ailələrinə ev bağışlamaqla yenidən öz qayğınızı göstərirsiniz. Xalqımız bunu duyur, hiss edir ki, biz Prezidentimizin himayəsindəyik.

Mən həmişə demişəm, heç kəs qorxmasın ki, gedib şəhid olaram, ailəm baxımsız qalar. Bizim Prezidentimiz hər bir şəhid ailəsinin qayğısına qalır. Sizə bütün şəhid ailələri adından, öz adımdan təşəkkür və minnətdarlıq edirəm ki, Siz bizi bu cür qayğı ilə əhatə edirsiniz. Allah Sizi qorusun, dövlətimizi, xalqımızı qorusun. Bütün şəhidlərimizə rəhmət, qazilərimizə cansağlığı diləyirəm. Sizinlə fəxr edirik. Allah Sizi həmişə qorusun. Sağ olun.

* * *

İkinci qrup Qarabağ müharibəsi əlili **Rahim BABAYEV** dedi:

- Cənab Prezident, müzəffər xalqın Müzəffər Ali Baş Komandanı, Sizə Qarabağ qaziləri adından, şəhid ailələri adından böyük təşəkkürümüzü, minnətdarlığımızı bildiririk. Ona görə ki, Siz nəinki bizim Azərbaycan xalqına, bütün türk dünyasına bir hədiyyə etdiniz - Qarabağ hədiyyəsi!

Vaxt uzandıqca son zamanlar insanlarda ümidsizlik yaranmışdı. Amma Siz bütün bu ümidsizliyə son qoydunuz. Dünyanın bir çox ölkələrində müharibələr olur, amma 44 günlük müharibə olmur. 44 gün ərzində belə bir nəticə heç bir yerdə, heç bir ölkədə olmayıb, amma bunu Siz etdiniz. Təkcə Azərbaycan xalqı deyil, bütün türk dünyası Sizinlə fəxr edir. Siz bütün dünyaya türkün gücünü və Sizin dediyiniz o "dəmir yumruğu" göstərdiniz və sübut etdiniz. Biz qazi olaraq, əsgər olaraq yenə də Sizin bütün əmr və sərəncamlarınızı yerinə yetirməyə hazırıq.

Hörmətli Prezident, biz qazi olaraq həyatda hər zaman Sizin qayğınızı hiss edirik. Bizim təqaüdlərimiz, pensiyalarımız məhz Sizin sərəncamlarınız əsasında mütəmadi surətdə ilbəil, aybaay artırılır. Məhz bu ilin əvvəlində də sərəncamınızla Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin pensiya və təqaüdləri artırıldı.

Bir neçə il bundan əvvəl biz Qarabağ qazilərinə avtomobil hədiyyə etmisiniz. Mənə də o avtomobildən hədiyyə olunub. Hazırda o avtomobili idarə edirəm. Bu gün isə məni evlə təmin edirsiniz.

Cənab Prezident, Siz nəinki bu xalqa, bütün türk dünyasına lazım olan insansınız. Allah Sizi qorusun. Var olun, sağ olun. Vətən sağ olsun!

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

# *Erik Rondolat:* "Siz bir lider olaraq vəziyyətdən düzgün çıxış yolunu tapa bildiniz"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 25-də "Signify" (əvvəlki adı "Philips Lighting") şirkətinin baş icraçı direktoru Erik Rondolatı və şirkətin rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib.

AZƏRTAC xəbər verir ki, şirkətin nümayəndələrini salamlayan Prezident **İlham ƏLİYEV** dedi:

- Hər vaxtınız xeyir.

**Erik RONDOLAT:** Hər vaxtınız xeyir.

**Prezident İlham ƏLİYEV:** Sizi yenidən görməyə çox şadam. Mən bizim sonuncu görüşlərimizi - ötən ilin yanvar ayında Davosdakı görüşü və həmçinin ötən il videokonfrans vasitəsilə təşkil olunmuş görüşü xatırlayıram. Çox şadam ki, sizin şirkətlə Azərbaycandakı tərəfdaşlarınız arasında əməkdaşlıq çox uğurla davam edir. Davosda razılaşdırdığımız kimi, siz ölkəmizdə çox mühüm layihələri həyata keçirirsiniz. Biz bütün müzakirə etdiklərimiz və razılığa gəldiyimiz məsələləri icra edirik. Mənə bu yaxınlarda məlumat verilmişdir ki, Bakıda, Sumqayıtda və Şamaxıda küçələrin işıqlandırılması layihəsi uğurla davam edir, yaxşı nəticələr əldə olunur, elektrik enerjisinin qənaəti yaxşı səviyyədədir. Bu, çox mühümdür. Çünki bizim ötən dəfə müzakirə etdiyimiz kimi, Azərbaycan şəhərlərinin müasirləşdirilməsi prosesi davam edir. Ona görə də xatırladığınız kimi, Bakıda biz əsas diqqəti küçə işıqları olmayan küçələrə yönəltməyi qərara aldıq. Sumqayıtda, eləcə də Şamaxıda siz layihəni tamamilə üzərinizə götürdünüz. Əminəm ki, belə şəhərlər daha çox olacaq. Çünki biz artıq yaxşı nəticələr görürük. Biz artıq səmərəliliyi görürük. Ötən dəfə müzakirə etdiyimiz kimi, biz bu texnologiyaları yalnız küçələrin işıqlandırılması sektorunda deyil, həm də digər sektorlarda tətbiq edə bilərik - xüsusilə azadlıq müharibəsindən sonra Azərbaycan hər şeyin dağıdıldığı azad edilmiş əraziləri artıq yenidən qurmağa başladığı dövrdə. Mən dəfələrlə dediyim kimi, biz həmin ərazilərdə çox müasir infrastruktur, o cümlədən "ağıllı şəhərlər", "ağıllı kəndlər" sistemi yaratmağı planlaşdırırıq. Proses artıq başlayıb. Ona görə də bizim müvafiq strukturlarımızla beynəlxalq şirkətlər arasında əməkdaşlıq üçün böyük imkan olacaq. Bu səbəbdən mən əməkdaşlığı davam etdirməyi və birinci layihənin ümidvaram ki, çox yaxın zamanda təhvil verilməsini səbirsizliklə gözləyirəm. Bu, əməkdaşlığımızın çox yaxşı göstəricisi olacaq. Bir daha yalnız müzakirələr və yeni ideyaların inkişaf etdirilməsi baxımından deyil, həm də təmasların qurulması baxımından Davos görüşünün əhəmiyyətini vurğulayıram. Sizi yenidən görməyə çox şadam.

"Signify" şirkətinin baş icraçı direktoru **Erik RONDOLAT:** "Sizin Azərbaycanın lideri olaraq münaqişəyə son qoymağınızı görməkdən çox şadıq. Münaqişə heç kim üçün yaxşı deyil və münaqişənin həlli bacarığına malik olan liderlərin olması bizim üçün çox önəmlidir".

Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması münasibətilə təbriklərini çatdıran "Signify" şirkətinin baş icraçı direktoru vurğuladı ki, dövlətimizin başçısının Qarabağdakı əraziləri yenidən Azərbaycana qaytarmağı onları çox sevindirir. Çünki bu münaqişə uzun müddət idi ki, davam edirdi.

"Siz bir lider olaraq vəziyyətdən düzgün çıxış yolunu tapa bildiniz" deyən Erik Rondolat vurğuladı ki, onlar işğaldan azad olunmuş ərazilərin təsvirlərini görüblər və oradakı dağıntıların miqyası onların qəlbində iz buraxıb.

Erik Rondolat ölkəmizdə həyata keçirdikləri layihələrdən danışdı, Bakı, Sumqayıt və Şamaxıda icra olunan layihələrin aprelin sonunadək yekunlaşacağını qeyd etdi. O, ölkəmizdə yeni layihələrin icrasında maraqlı olduqlarını dedi.

**Prezident İlham ƏLİYEV:** Təşəkkür edirəm. Təbriklərinizə görə çox sağ olun. Düşünürəm ki, bu, həqiqətən də təkcə Azərbaycan üçün deyil, həm də bütün region üçün tarixi nailiyyət oldu. Çünki indi regionun tam inteqrasiya olunmaq üçün böyük imkanı var.

Dövlətimizin başçısı münaqişənin həlli ilə regiondakı bütün ölkələr üçün yeni imkanların yaradıldığını dedi. İşğal dövründə həmin ərazilərimizin ermənilər tərəfindən tamamilə dağıdıldığını qeyd edən Prezident İlham Əliyev vurğuladı ki, biz artıq bu ərazilərdə elektrik enerjisinin hasilatı, avtomobil və dəmir yollarının tikintisi ilə bağlı layihələrə start vermişik.

**Prezident İlham ƏLİYEV** "Signify" şirkətinin ölkəmizdə icra etdiyi layihələri də qeyd edərək dedi:

- Hesab edirəm ki, Bakı, Sumqayıt, Şamaxı layihələri sizin şirkətinizin yüksək fəaliyyətini, səmərəliliyini həqiqətən də nümayiş etdirir. Bizim yeni planlarımız var. Biz artıq digər böyük şəhərlərlə və əlbəttə ki, işğaldan azad olunmuş ərazilərlə bağlı bu planları müzakirə etmişik. Biz hər bir şəhərin yenidən qurulması üçün baş plan hazırlayırıq və küçələrin işıqlandırılması bunun mühüm bir hissəsi olacaqdır.

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikasının Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" 2021-ci il yanvarın 21-də Aşqabad şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 23 fevral 2021-ci il*

## "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumuna əsasən "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi üzrə tərəflər arasında əməkdaşlığı tənzimləyəcək hökumətlərarası Sazişin layihəsinin hazırlanması və razılaşdırılması məqsədilə Azərbaycan Respublikası tərəfindən İşçi Qrupun yaradılması barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının 2021-ci il 23 fevral tarixli 263-VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumunun 3-cü maddəsindən irəli gələrək, "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi üzrə tərəflər arasında əməkdaşlığı tənzimləyəcək hökumətlərarası Sazişin layihəsinin hazırlanması və razılaşdırılması məqsədilə Azərbaycan Respublikası tərəfindən aşağıdakı tərkibdə İşçi Qrup yaradılsın:

**İşçi Qrupun rəhbəri**

Azərbaycan Respublikasının energetika naziri

**İşçi Qrupun üzvləri**

Azərbaycan Respublikası xarici işlər nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini
Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayələr və marketinq üzrə vitse-prezidenti
Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin geologiya və geofizika üzrə vitse-prezidenti.

2. Azərbaycan Respublikasının Energetika Nazirliyi və Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 25 fevral 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" 2013-cü il 26 dekabr tarixli 61 nömrəli Fərmanında və "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" 2014-cü il 15 oktyabr tarixli 774 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Böyükşor gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və istifadəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 26 dekabr tarixli 61 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1528; 2016, № 8, maddə 1384) 1 - 2-ci hissələrində və 5.2-ci bəndində "İqtisadiyyat" sözü "Ekologiya və Təbii Sərvətlər" sözləri ilə əvəz edilsin.

2. "Zığ gölünün ekoloji vəziyyətinin yaxşılaşdırılması, mühafizəsi və ondan istifadə sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 oktyabr tarixli 774 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1239; 2016, № 8, maddə 1384) 1 - 2-ci hissələrində və 5.2-ci bəndində "İqtisadiyyat" sözü "Ekologiya və Təbii Sərvətlər" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Böyükşor və Zığ göllərinə aid bütün sənədləri və məlumatları bir ay müddətində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təhvil versin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 25 fevral 2021-ci il*

# Pakistanın Sərhəd İşləri Təşkilatı Azərbaycanın infrastruktur layihələrinin icrasında maraqlıdır

İqtisadiyyat naziri Mikayıl Cabbarov Pakistanın Sərhəd İşləri Təşkilatının (FWO) baş direktoru, general-mayor Kamal Azfarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə M.Cabbarov Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun qələbəsini vurğulayaraq Pakistanın 44 günlük Vətən müharibəsi zamanı Azərbaycanın mövqeyini birmənalı dəstəkləməsinin yüksək qiymətləndirildiyini, ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.

Nazir bildirib ki, azad edilmiş ərazilərin bərpası və inkişafı konsepsiyası hazırlanıb. Konsepsiyada dövlət-özəl tərəfdaşlığından geniş istifadə, həmçinin xarici investorlar üçün xüsusi təşviq proqramları və ərazilərin inkişafı üçün xarici şirkətlərin cəlb edilməsi nəzərdə tutulur.



Pakistanın Sərhəd İşləri Təşkilatının baş direktoru, general-mayor K.Azfar ölkəsinin Azərbaycanla əməkdaşlığın inkişafına xüsusi önəm verdiyini bildirib, əlaqələrin genişləndirilməsi istiqamətində fikirlərini bölüşüb. Qeyd edilib ki, FWO Azərbaycanla infrastruktur layihələrinin icrası üzrə əməkdaşlıqda maraqlıdır.

Görüşdə əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğu vurğulanıb, Pakistan şirkətlərinin ölkəmizdə həyata keçirilən infrastruktur layihələrində, işğaldan azad edilmiş ərazilərimizin bərpasında iştirakına dair müzakirələr aparılıb.

# Azərbaycanın xarici işlər naziri Pakistanın Sərhəd İşləri Təşkilatının Baş direktorunun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb

Fevralın 25-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Pakistan İslam Respublikasının Sərhəd İşləri Təşkilatının Baş direktoru general-mayor Kamal Azfarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov qarşı tərəfi səmimiyyətlə salamlayıb, Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin cari vəziyyətini məmnunluqla qeyd edib. Pakistanın Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyini hər zaman dəstəkləməsinin Azərbaycan dövləti və xalqı tərəfindən yüksək qiymətləndirildiyi qarşı tərəfin diqqətinə çatdırılıb. Sərhəd İşləri Təşkilatının səfəri çərçivəsində keçirdiyi görüşlərin və işğaldan azad olunmuş ərazilərə baş çəkmələrinin bölgədəki vəziyyətlə yaxından tanış olmaq üçün əlverişli imkan yaratdığı qeyd olunub. Ümumilikdə bu səfərin faydalı olacağı və ölkələrimiz arasında inkişaf edən əlaqələrə müsbət töhfə verəcəyinə inam ifadə edilib.



Sərhəd İşləri Təşkilatının Baş direktoru general-mayor Kamal Azfar, öz növbəsində, səmimi qəbula görə nazir Ceyhun Bayramova təşəkkürünü bildirib, Azərbaycan dövləti və xalqını Qələbə münasibətilə bir daha təbrik edib. O, işğaldan azad olunmuş məntəqələrə səfərləri çərçivəsində bu ərazilərdə törədilmiş dağıntıların miqyasının şahidi olduqlarını təəssüflə qeyd edərək, buna rəğmən, ərazilərin Azərbaycanın nəzarətinə qayıtmasından böyük fəxr hiss etdiklərini vurğulayıb.

Söhbət zamanı qarşı tərəf cari səfəri olduqca məhsuldar qiymətləndirib.

Görüşdə həmçinin ikitərəfli əlaqələrin gələcək inkişaf perspektivləri üzrə fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İsrail arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişaf perspektivləri müzakirə edilib

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov fevralın 25-də İsrailin ölkəmizdəki səfiri Corc Diklə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə tərəflər bölgədə mövcud olan cari vəziyyət, habelə 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların həyata keçirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər habelə Azərbaycanla İsrail arasında ikitərəfli əməkdaşlıq münasibətlərinin inkişafı perspektivlərini müzakirə ediblər.

Görüşdə həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Bakıda Pakistan hərbi nümayəndə heyəti ilə görüş

Fevralın 25-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində nazir müavini general-leytenant Kərim Vəliyev ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Sərhəd İşləri Təşkilatının Baş icraçı direktoru general-mayor Kamal Azfarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub. Hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

Tərəflər həmçinin azad edilmiş ərazilərin minalardan və partlamamış sursatdan təmizlənməsi işlərinə pakistanlı mütəxəssislərin də cəlb olunması məsələsi, o cümlədən ölkələrimiz arasında hərbi əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

# Britaniya parlamentinin Azərbaycan Qrupunun ümumi illik iclası

Fevralın 25-də Böyük Britaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun illik ümumi iclası keçirilib. İclasda qrupun sədri, Mühafizəkarlar partiyasının üzvü Bob Bləkmən, qrupun Lordlar və Nümayəndələr Palatasından olan üzvləri, Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev, Azərbaycanın Birləşmiş Krallıqdakı səfiri Tahir Tağızadə və Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin müdir müavini Babək Ağayev iştirak ediblər.

Tədbirdə Bob Bləkmən Böyük Britaniya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun sədri vəzifəsinə yenidən təsdiqlənib və qrupun rəhbər heyətinin tərkibi razılaşdırılıb.

Xocalı soyqırımının 29-cu ildönümü ərəfəsində keçirilən iclasda sədr Bob Bləkmən Azərbaycan xalqına və faciə qurbanlarının yaxınlarına başsağlığı verib. O, bununla bağlı Nümayəndələr Palatasında irəli sürdüyü ilkin qanunvericilik təşəbbüsündən danışaraq belə faciələrin baş verməməsi üçün bundan sonra da anım tədbirlərinin keçirilməsinin əhəmiyyətini qeyd edib.

Qrupun sədri və üzvləri çıxışlarında Azərbaycanın əzəli torpaqlarını işğaldan azad etməsini məmnunluqla vurğulayıblar. Onlar işğaldan azad olunan ərazilərə səfər etmək niyyətlərini bildiriblər.

Səfir Tahir Tağızadə çıxışında regiondakı hazırkı vəziyyət haqqında məlumat verərək Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə dövlət naziri xanım Vendi Mortonun fevralın 8-10-da ölkəmizə səfərinin nəticələrinə toxunub. Səfərin çox uğurlu keçdiyini qeyd edən diplomat ölkələrimiz arasında işğaldan azad edilən ərazilərin bərpası da daxil olmaqla genişmiqyaslı əməkdaşlıq üçün yeni imkanların mövcudluğunu vurğulayıb.

Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Cavanşir Feyziyev işçi qrupunun üzvlərini ölkəmizə səfərə dəvət edib. O, səfər zamanı qrupun üzvlərinin azad edilmiş ərazilərdə vəziyyətlə tanışlıq imkanı qazanacaqlarını vurğulayıb.

Milli Məclis Aparatının Beynəlxalq münasibətlər şöbəsinin müdir müavini Babək Ağayev bu müzakirələrin davamı olaraq Azərbaycanın işğaldan azad edilmiş ərazilərində mövcud vəziyyətlə bağlı beynəlxalq parlamentarilərin və jurnalistlərin məlumatlandırılması istiqamətində görülən işlər haqqında məlumat verib.

Tədbirdə Britaniya parlamentinin nümayəndə heyətinin ölkəmizə səfərinin növbəti aylarda həyata keçirilməsi barədə razılıq əldə olunub.

# Xocalı soyqırımının ildönümü ilə əlaqədar Ankarada anım tədbiri keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Türkiyədə Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar silsilə tədbirlər təşkil edilir. Belə tədbirlərdən biri də Azərbaycanın Türkiyədəki səfirliyi və Ankaranın Keçiörən rayon bələdiyyəsinin birgə təşkilatçılığı ilə keçirilib.

AZƏRTAC xəbər verir ki, Keçiörəndəki Azərbaycan parkında yerləşən Xocalı soyqırımı abidəsi qarşısında "Unutmayacağıq, unutdurmayacağıq!" şüarı altında təşkil olunan tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib, şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Xocalı soyqırımının dünyada tanıdılması istiqamətində Keçiörən rayon bələdiyyəsinin ilk addımları atanlardan olduğunu diqqətə çatdıran səfir Xəzər İbrahim rayon rəhbərliyinə minnətdarlıq edib. O deyib ki, bu dəfə əvvəlki illərdən fərqli olaraq Xocalı soyqırımı abidəsinin önündə qalib ölkənin vətəndaşları olaraq toplaşmışıq. Bu zəfəri Azərbaycana Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə cəsur ordumuz qazandırıb.

Keçiörən bələdiyyəsinin sədri Turqut Altınok deyib ki, Xocalı soyqırımının dəhşətlərini heç zaman unutmayacağıq. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun Qələbəsini tarixi hadisə kimi dəyərləndirən sədr vurğulayıb ki, torpaqların işğaldan azad olunması şəhidlərin ruhunu şad edib.

Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun təmsilçisi Soltan Məmmədov çıxışında fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlər barədə danışıb. O, işğalçı Ermənistanın Xocalı soyqırımını törətməkdə əsas məqsədlərindən birinin Azərbaycan xalqını qorxutmaq olduğunu deyib. Qəddar düşmən 44 günlük Vətən müharibəsində də Azərbaycanın dinc əhalisini, mülki obyektləri hədəf alaraq öz amansızlığını nümayiş etdirib. Bütün hallarda düşmənin məqsədi xalqımızın mübarizə əzmini qırmaq olub. Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət!", Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir!" ifadələrini xatırladan deputat bildirib ki, qəhrəman ordumuzun rəşadətlə başa vurduğu savaşda Azərbaycan-Türkiyə qardaşlığı bir daha bütün dünyaya nümayiş olundu.

Xocalı şəhidləri qarşısında ehtiramla baş əydiyini söyləyən Ankara Universitetinin rektoru Necdet Ünüvar şəhidlərimizin qanı bahasına əldə etdiyimiz Zəfəri tarixi Qələbə kimi dəyərləndirib. O, rəhbərlik etdiyi təhsil müəssisəsi ilə Azərbaycan universitetləri arasındakı layihələrdən də bəhs edib.

Qırx dörd günlük müharibənin nəticəsi olaraq təcavüzkar Ermənistanın təslimçilik aktına imza atdığını xatırladan Keçiörən rayonunun icra başçısı Uğur Bulut qazanılan Zəfərlə bölgədə yeni siyasi mənzərənin yarandığını vurğulayıb. O bildirib ki, nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası Azərbaycanın və Türkiyənin ortaq uğurudur.

Çıxışlardan sonra tədbir iştirakçıları Xocalı soyqırımı abidəsi önünə qərənfillər düzüblər.

# XOCALIYA ƏDALƏT

## Türkiyə parlamentində Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı anım mərasimi və sərgi keçirilib

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində Azərbaycanın Türkiyədəki səfirliyi tərəfindən Türkiyə Böyük Millət Məclisində (TBMM) Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar anım mərasimi keçirilib, Ermənistanın işğalçılıq siyasətinin dəhşətlərini əks etdirən foto və rəsm sərgisi olub.

AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin evsahibliyi ilə keçirilən tədbirdə diplomatlar, Azərbaycanı və Türkiyəni təmsil edən deputatlar, KİV təmsilçiləri iştirak ediblər.

Azərbaycanın tarixi hərb Zəfərindən sonra belə bir anım mərasiminin keçirilməsini tarixi bir hadisə kimi dəyərləndirən səfir Xəzər İbrahim diqqətə çatdırıb ki, qazanılan Qələbə həm də Türkiyənin zəfəridir. Çünki Türkiyə hər zaman haqqın və ədalətin yanında olub. Heç təsadüfi deyil ki, bu gün işğaldan azad olunan torpaqlarımızda Azərbaycan və Türkiyənin bayraqları yanadır. Bu, "Bir millət, iki dövlət!" kəlamının və dövlətlərimizin qardaşlığının bütün dünyaya nümayişidir.

Səfir Xəzər İbrahim Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində görülən işlərin məqsəd və mahiyyətindən danışıb, bildirib ki, Azərbaycan bir daha dünyada Xocalı soyqırımı kimi amansız cinayətlərin baş verməsini istəmir.

29 il əvvəl Xocalıda tarixin ən dəhşətli bəşəri cinayətlərindən birinin törədildiyini diqqətə çatdıran Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop diqqətə çatdırıb ki, bu gün həmin acı hadisədə həyatını itirən insanların xatirəsini bir daha yad etmək üçün toplaşmışıq. Azərbaycan Ordusu ötən il 44 günlük müharibədə böyük zəfər qazanaraq ağır yaralara məlhəm çəkdiyini ifadə edən Türkiyə parlamentinin sədri Mustafa Şentop deyib ki, 44 gün ərzində Azərbaycan Ordusu müharibəni beynəlxalq hüququn normalarına uyğun şəkildə apararaq, böyük qəhrəmanlıq göstərərək Qələbə qazandı və yüksək qabiliyyətli, peşəkar ordu olduğunu bütün dünyaya nümayiş etdirdi.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bildirib ki, Türkiyə bugünə qədər olduğu kimi, bundan sonra da ədalətli işində qardaş Azərbaycanın yanında olacaq.

Çıxışında Xocalı soyqırımının dəhşətlərini öz gözləri ilə görən xarici jurnalistlərin ifadələrinə, eləcə də təcavüzkar Ermənistanın hərbi komandanlarının bu bəşəri cinayəti etiraf etmələri barədə faktlara müraciət edən Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop mərasim çərçivəsində mövzu ilə bağlı geniş müsahibə verib.

Sonra iştirakçılar parlamentdə sərgilənən Türkiyənin Qazi Universitetinin tələbələrinin Xocalı soyqırımı mövzusunda çəkdikləri rəsmlərə, eləcə də təcavüzkar Ermənistanın otuz il işğalda saxladığı və Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə yenilməz Ordumuzun azad etdiyi ərazilərin dəhşətli görüntülərini əks etdirən fotosərgiyə baxıblar.

## İran parlamentinin Azərbaycan ilə dostluq qrupu Xocalı faciəsi ilə bağlı bəyanat yayıb

İran İslam Şurası Məclisinin (parlamentin) Azərbaycan Respublikası Milli Məclisi ilə işçi qrupu Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, bəyanatda Xocalıda törədilmiş soyqırımı aktı pislənib. Bəyanatda deyilir: İslam inqilabının hədəflərini, Ali Rəhbərin ədalət və insanların ləyaqəti önündə ehtiramla durmağı prioritet bilən təlimatlarını bir daha vurğulamağı zəruri hesab edir. Bəyan edir ki, bu dostluq qrupu daima "ölkələrin ərazi bütövlüyü" kimi vacib elementlər və komponentlərə vurğu edir. Qonşuların, xüsusilə də dost və qardaş ölkə olan Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyir. Həmçinin "işğal"a və dünyanın istənilən yerində şəhərlərə və yaşayış məskənlərinə hərbi hücuma qarşı olduğumuzu bəyan edir. Qarabağın işğalı dövründə Xocalı hadisəsinin qurbanlarının yaxınlarının kədərinə şərik olduğumuzu bildiririk".

## Parlament dostluq qruplarının onlayn görüşləri olub

Fevralın 25-də Milli Məclisin və Litva Seyminin parlamentlərarası əlaqələr üzrə qarşılıqlı dostluq qruplarının videokonfrans formatında görüşü keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Nəsib Məhəməliyev tədbir iştirakçılarına Xocalı soyqırımı barədə məlumat verib. Deputat erməni təcavüzkarları tərəfindən Xocalıda qoca, uşaq, qadın demədən dinc əhalinin vəhşicəsinə qətlə yetirilməsini bəşəriyyət əleyhinə ən dəhşətli cinayətlərdən biri kimi xarakterizə edib.

Bildirilib ki, Ermənistanın Qarabağ münaqişəsinin nizamlanması üçün aparılan danışıqlarda əldə edilən razılaşmalara, BMT Təhlükəsizlik Şurası da daxil olmaqla, nüfuzlu beynəlxalq təşkilatların qərarlarına əməl etməməsi İkinci müharibə ilə nəticələnib və 44 gün davam edən bu müharibə Azərbaycanın Qələbəsi ilə başa çatıb. Qeyd olunub ki, imzalanan üçtərəfli bəyanat münaqişəyə qon qoyub, əldə edilən razılaşmalar bölgədə uzunmüddətli sülhün bərqərar olması və gələcək inkişaf üçün möhkəm zəmin yaradıb.

Görüşdə çıxış edən Litva-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Kazis Starkeviçius Qarabağ münaqişəsi zamanı həlak olan həmvətənlərimizə görə təəssüfləndiyini bildirib və kədərini bölüşüb.

Litvalı deputat iki ölkənin parlamentləri arasında münasibətlərin mövcud vəziyyətindən danışıb və ölkələrimizin iqtisadi əlaqələrinin inkişafı üçün yeni imkanların yarandığını diqqətə çatdırıb. O, ölkəsində pandemiya ilə bağlı vəziyyət barədə məlumat verərək əlaqələrimizin pandemiyadan sonra daha da inkişaf etdirilməsinin vacibliyindən, bu işdə dostluq qruplarının rolundan söhbət açıb.

Tədbirdə çıxış edən Azərbaycan-Litva parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Tahir Mirkişili, Rasim Musabəyov, Azər Kərimli, Kamilə Əliyeva, Şahin Seyidzadə Xocalı soyqırımı kimi faciələrin bir daha təkrarlanmaması üçün bu cür cinayətlərin pislənməsinin və beynəlxalq aləmdə hüquqi-siyasi qiymətini almasının vacibliyini qeyd ediblər.

Litva Seyminin Azərbaycanla dostluq qrupunda təmsil olunan deputatlar Pupinis Edmundas, Kestutis Masiulis, Rimante Şalaşeviçiute mövcud əlaqələrimizin müsbət dinamikasına əsaslanaraq post pandemiya dövründə bu potensialı artırmağın vacibliyinə diqqət çəkiblər. Azərbaycanın tarixi acılarına hörmətlə yanaşdıqlarını deyən deputatlar xalqlarımız arasında təmasların artırılmasının və bir-birimizin tarixini öyrənməyin vacibliyini vurğulayıblar.

Onlayn tədbirdə hər iki ölkənin səfirləri Tamerlan Qarayev və Eqidiyus Navikas də iştirak ediblər.

* * *

Fevralın 25-də Milli Məclisin Çexiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Elnur Allahverdiyev və Çexiya parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Zdenek Ondraçek arasında onlayn formatda görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Elnur Allahverdiyev iki ölkə arasında münasibətlərin yüksək səviyyədə olduğunu deyib. O, Azərbaycanın Çexiya ilə əlaqələrin hərtərəfli inkişafında maraqlı olduğunu diqqətə çatdırıb.

2013-cü ilin fevralında Çexiya Parlamentinin Deputatlar Palatasının Beynəlxalq əlaqələr komitəsinin Ermənistan silahlı qüvvələrinin dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi Xocalıda soyqırımı ilə bağlı qətnamə qəbul etdiyi və bu cinayət hadisəsini pislədiyi razılıqla qeyd edilib. Elnur Allahverdiyev bu məsələdə Azərbaycanın mövqeyini dəstəklədiyinə görə Çexiya parlamentinə təşəkkürünü ifadə edib. Diqqətə çatdırıb ki, Çexiya Avropa İttifaqının üzvləri arasında Xocalıda azərbaycanlılara qarşı həyata keçirilən bu qətliama ədalətli qiymət verən ilk dövlətdir. Azərbaycan xalqı və dövləti bunu yüksək dəyərləndirir.

Qeyd olunub ki, fevralın 26-da Xocalı faciəsinin növbəti ildönümüdür və bütün Azərbaycan xalqı bu acı tarixi ümummilli faciə kimi yad edəcək. Eyni zamanda ölkəmizin Çexiyadakı səfirliyi tərəfindən bununla bağlı tədbir keçiriləcək və bu soyqırımı haqqında həqiqətlər geniş ictimaiyyətin diqqətinə çatdırılacaq.

Bildirilib ki, Azərbaycan torpaqlarını 30 ilə yaxın işğal altında saxlayan erməni təcavüzünə artıq son qoyulub. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşməni məğlub edərək torpaqlarımızı işğaldan azad edib, dövlətimizin ərazi bütövlüyü bərpa olunub. Bu gün həmin ərazilərdə artıq yenidənqurma və bərpa işləri uğurla həyata keçirilir.

Deputat onu da diqqətə çatdırıb ki, ötən il noyabrın 9-da Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması ilə bağlı Azərbaycan, Ermənistan və Rusiya rəhbərliyi arasında bəyanat imzalanıb. Azərbaycan tərəfi bu bəyanatdan irəli gələn bütün öhdəliklərə əməl edir. Lakin Ermənistan yenə də Azərbaycan ərazisində terror aktları həyata keçirməyə cəhdlər edib. Lakin bu cəhdlərin qarşısı müvəffəqiyyətlə alınıb.

Görüşdə iştirak edən Çexiya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Fatma Yıldırım Xocalı soyqırımının tarixi barədə ətraflı məlumat verib. Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yerləşən Xocalı şəhərinin mülki əhalisinə qarşı soyqırımı həyata keçiriblər. Hərbi təcavüz nəticəsində qadınlar, uşaqlar və yaşlı insanlar da daxil olmaqla 613 dinc sakin xüsusi amansızlıqla qətlə yetirilib.

Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü olduğunu deyən Fatma Yıldırım qeyd edib ki, biz Qarabağın dirçəldilməsi istiqamətində məqsədyönlü fəaliyyətimizdə dost ölkələrin yaxından iştirak etməsini də arzu edirik.

Çexiya parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Zdenek Ondraçek Azərbaycana iki dəfə səfər etdiyini, parlamentdə bir sıra görüşlər keçirdiyini söyləyib. O, Azərbaycan xalqı ilə yaxından tanış olduğunu və buradakı qonaqpərvərliyi təqdir etdiyini deyib.

Çexiyalı deputat ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. Xocalı barədə ətraflı məlumata görə təşəkkür edən çexiyalı deputat Çexiyanın da Liditsa kəndində, ölkənin bir sıra digər şəhərlərində soyqırımların baş verdiyini bildirib, bu qanlı tarixlərin daim xalqlarımızın yaddaşında qalacağını deyib. O, Qarabağda aparılan yenidənqurma və bərpa prosesini yüksək qiymətləndirib, bu istiqamətdə birgə layihələrin həyata keçirilməsinin zəruriliyini vurğulayıb.

Söhbət zamanı parlamentlərarası münasibətlərin gələcək inkişaf perspektivləri, dostluq qrupları çərçivəsində əlaqələrin genişləndirilməsi, habelə iqtisadi sahədə əməkdaşlığın inkişafı barədə fikir mübadiləsi aparılıb.

## Beynəlxalq konfransda Xocalı soyqırımı yad edilib

Fevralın 24-də Ukraynada onlayn formatda təşkil olunmuş "Hərbi cinayətlər və yerli ölçüdə soyqırımı cinayətləri" mövzusunda beynəlxalq elmi-praktik konfransa Azərbaycan təmsilçiləri də qatılıblar. Tədbirə Ukraynanın "Putivl" Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Sergey Tupik moderatorluq edib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, konfransda çıxış edən Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, professor Rüfət Quliyev məruzəsində 29-cu ildönümü tamam olan Xocalı soyqırımını indiyədək tanıyan ölkələr və ABŞ ştatları barədə məlumat verib. Hər bir xalqın öz tarixindəki soyqırımları yadda saxlamalı və bu cinayəti törədənləri dünyaya tanıtmalı olduğunu vurğulayıb. Deputat ölkəmizin 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən danışaraq Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etdiyini və ərazi bütövlüyümüzün bərpa olunduğunu bildirib. Dostluq qrupunun rəhbəri konfransın iştirakçılarına və təşkilatçılarına müraciət edərə, Ukrayna Ali Radasının Xocalı soyqırımını tanıması üçün bizi dəstəkləmələrini istəyib. Dost Ukrayna xalqının Azərbaycanın haqq işini müdafiə edəcəyinə ümidvar olduğunu bildirib.

Elmi-praktik konfransda "Novaya Slobodanın faciəsi", "Əsrlər boyu Baturin soyqırımı", "Koryukovka faciəsi...", "Holokost haqqında Koryukov yaddaşı", "Novaya Sloboda: qoryunların yaşadığı kənd", "XX əsrdə qoryun mədəni irsinin qorunması problemi" və digər mövzularda Ukrayna ziyalılarının, tanınmış alimlərin, din xadimlərinin məruzələri dinlənilib. 1941-1945-ci illərdə alman faşistlərinin Ukraynada, Belarusda, Çexiyada, Fransada və digər ölkələrdə törətdikləri hərbi cinayətlərdən, soyqırımlardan bəhs olunub. Mövzuya dair foto və videomateriallar nümayiş etdirilib. Konfransda Bakı Slavyan Universitetinin dosenti Yaşar Alxasov "Xocalı: mədəni irsin qorunması..." mövzusunda məruzə ilə çıxış edib. Sonra VI və VII çağırış Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan parlamentlərarası əməkdaşlıq qrupunun katibi Oleq Medunitsanın "Millətlərarası düşmənçilik zəminində soyqırımı" mövzusunda məruzəsi dinlənilib.

Beynəlxalq konfransda çıxış edən Azərbaycanın Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Elmira Axundova Xocalı soyqırımı barədə ətraflı məlumat verib. Hazırda bir sıra dünya ölkələrinin separatizmdən əziyyət çəkdiyini qeyd edən diplomat deyib ki, belə faciələrin bir daha baş verməməsi üçün dünya xalqları birləşərək separatizmə və təcavüzkar millətçiliyə qarşı birgə mübarizə aparmalıdırlar. Səfir bildirib ki, İkinci Qarabağ müharibəsində də erməni faşizmi öz simasını göstərdi. Onlar 30 il əvvəl olduğu kimi, yenə də dinc əhaliyə qarşı qətliam həyata keçirdilər, qadağan olunmuş silahlarla Qarabağdan çox uzaqda yerləşən Azərbaycan şəhərlərini bombaladılar. O, cinayətkarların gec-tez cəzalarını alacağına inamını ifadə edib.

Sonra elmi-praktik konfransın iştirakçıları konsul Əfqan Salmanovun təqdim etdiyi "XOCALI: 1992-ci ilin qanlı fevralında soyqırımı aktı" sənədli filminə baxıblar.

Filmin nümayişindən sonra elm xadimləri və siyasi xadimlər, Sum vilayəti administrasiyasının nümayəndələri, Novaya Sloboda və Koryukovka sakinləri, Putivl, Baturin və Çerniqov şəhərlərindəki dövlət qoruqları və tarix muzeylərinin əməkdaşları, Ukrayna Milli Yaddaş İnstitutunun nümayəndələri Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Beynəlxalq elmi-praktik konfransın yekununda qətnamə qəbul olunub.




# XX əsrin faciəsi - Xocalı soyqırımı










## Vətən müharibəsindəki Qələbə ilə Xocalı soyqırımı qurbanlarının ruhu təsəlli tapdı

# İnsanlığa qarşı amansız terror

*Əvvəli 1-ci səh.*

Ovaxtkı iqtidar qorxaqlıq və qətiyyətsizlik nümayiş etdirərək, XX əsrdə bəşəriyyəti dəhşətə salan bu müdhiş cinayət barədə ilk günlərdə xalqa məlumat belə vermirdi. Sonralar - AXC-Müsavat iqtidarı dövründə də insanlıq əleyhinə yönələn cinayətə lazımi siyasi və hüquqi qiymət verilməsi üçün heç bir tədbir görülmədi.

Yalnız Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı faciəsi özünün əsl siyasi-hüquqi qiymətini aldı. İlk növbədə Xocalı faciəsi ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı aktı kimi təsbit olundu və dünyaya tanıdılması istiqamətində xeyli iş görüldü. Ulu Öndərin təşəbbüsü ilə Milli Məclis 1994-cü il fevralın 24-də "Xocalı soyqırımı (genosidi) günü haqqında" xüsusi qərar qəbul etdi. Bu sənəddə hadisənin baş vermə səbəbləri, günahkarlar təfsilatı ilə açıqlandı. Eyni zamanda Xocalı faciəsi ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, erməni qəsbkarlarının beynəlxalq müstəvidə ifşası mühüm vəzifələr kimi önə çəkildi.

Bununla da Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ölkələrinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. Erməni şovinist millətçilərinin azərbaycanlılara qarşı törətdikləri cinayətlər, o cümlədən Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması, faciənin soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl fəaliyyətə start verildi.

Tarixi şərait və erməni təəssübkeşliyi səbəbindən xalqımızın faciələrinə beynəlxalq səviyyədə obyektiv qiymət vermək mümkün olmamışdır. O cümlədən Xocalı faciəsinə də ikili standartlara və Azərbaycan torpaqlarının işğalına beynəlxalq təşkilatların laqeyd münasibətinə görə uzun illər siyasi-hüquqi qiymət verilmədi. Buna baxmayaraq, Azərbaycan dövləti Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cumlədən Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanınması üçün məqsədyönlü və ardıcıl iş apardı. Bu məsələdə İlham Əliyevin müəyyən etdiyi hücum diplomatiyasının həyata keçirilməsi tezliklə effektiv nəticələr verdi. Qeyd edək ki, Prezident İlham Əliyev Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılması üçün davamlı və ardıcıl fəaliyyətin vacibliyi barədə deyib: "Azərbaycanlılara qarşı erməni şovinist dairələrinin XIX-XX əsrlərdə mərhələ-mərhələ həyata keçirdiyi etnik təmizləmə siyasətinin tərkib hissəsi olan Xocalı soyqırımı haqqında həqiqətlər dünya ictimaiyyətinə, xarici ölkələrin parlamentlərinə çatdırılmalı, Azərbaycan xalqının və ümumən insanlığın əleyhinə yönəldilmiş bu son dərəcə ağır hərbi cinayət beynəlxalq miqyasda öz hüquqi-siyasi qiymətini almalıdır".

Ona görə bu gün qanında, canında vətən sevgisi olan hər bir azərbaycanlının qarşısında duran ən əsas vəzifələrdən biri dövlətin bu istiqamətdə həyata keçirdiyi işlərə dəstək verərək Xocalı soyqırımı barədə əsl həqiqətləri dünyaya çatdırmaq, faciəyə beynəlxalq müstəvidə siyasi-hüquqi qiymətin verilməsinə nail olmaqdır.

Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, qətliama obyektiv qiymət verilməsi istiqamətində atılan addımlarda Heydər Əliyev Fondunun müstəsna rolu var. Fond yaradıldığı ilk gündən bütün imkanlarından istifadə edərək Xocalı soyqırımının dünyada təbliğ olunması yönündə ardıcıl, məqsədyönlü və səmərəli tədbirlər həyata keçirməkdədir. Fondun gərgin əməyi nəticəsində dünya ölkələri erməni qəsbkarlarının insanlığa sığmayan qətlləri haqqında daha dolğun məlumatlandırılır.

Xocalı soyqırımının dünyada tanıdılması ilə bağlı "Xocalıya ədalət!" kampaniyası çərçivəsində keçirilən tədbirlər olduqca təqdirəlayiqdir. "Xocalıya ədalət!" kampaniyası İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə başlayıb. İlk gündən başlayaraq kampaniya yüksək templə davam edib və aksiyaya dünyanın əksər ölkələrində könüllülər qoşulub.

Xocalı soyqırımının dünya miqyasında tanıdılması sahəsində aparılan sistemli işin nəticəsidir ki, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının, Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentlərinin müvafiq sənədlərində Xocalıda törədilmiş kütləvi qətllərin soyqırımı aktı olduğu təsdiq edilib. Rumıniya, Bosniya və Herseqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 20-dən çox ştatının icra və qanunvericilik orqanı Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləyib.

Hər il Azərbaycanda və dünyanın müxtəlif ölkələrində Xocalı soyqırımı genişmiqyaslı tədbirlərlə qeyd edilir. Bütün bu tədbirlər, o cümlədən Prezident, Ali Baş Komandan İlham Əliyevin öndərliyi ilə Azadlıq meydanından "Xocalı soyqırımı" adibəsinə edilən ümumxalq yürüşləri göstərirdi ki, qisas anımız, torpaqlarımızın işğaldan azad ediləcəyi gün uzaqda deyil. Ümumxalq yürüşləri xalqımızın işğal altındakı torpaqların azad olunması uğrunda həmrəyliyinin nümayişi idi. On minlərlə insanın iştirak etdiyi ümumxalq yürüşləri işğalçıya və onların havadarlarına mesaj idi.

Ötən il baş verən 44 günlük Vətən müharibəsində işğal altında olan torpaqlarını azad edən Azərbaycan xalqı milli maraqlarını təmin etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev bu Qələbə ilə Azərbaycan tarixinin şərəfli səhifəsinin, yeni qəhrəmanlıq salnaməsinin müəllifi oldu.

Bu Qələbə ilə Xocalı şəhidlərinin ruhları təsəlli tapdı. Soyqırımı qurbanlarının qanı yerdə qalmadı, onların qisası döyüş meydanlarında alındı. Vətən müharibəsindəki Qələbə həm də Xocalı soyqırımını dünyada daha sürətlə tanıdacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Bu dərdin adı Xocalı...

"Hər gecə Bakıdan Qarabağa yol gedirəm. Ağdamdan keçirəm. Bənövşəli yamacda diz çökürəm, torpağına səcdə edirəm Xocalının. Yamyaşıl otlarını oxşayıram, yamacında uzanıb gözlərimi mavi səmasına dikirəm. "Belə ölmək nə gözəldir, ay Xocalım..." deyirəm".

İllər öncə Xocalı sakini İsmayıl Cavadov danışmışdı bunları mənə. Gözlərimin qarşısında təkcə sözləri ilə deyil, səsinin rəngi, həzin çırpıntısı, titrəyişi ilə Xocalı həsrətinin rəsmini çəkmişdi. Söyləmişdi ki, yurd nisgili gözlərdən çəkilən yuxudur, hər gecə xəyallarda gedilən yol, çatılan mənzil, qucaqlanan dünyadır.

## Vətən candan əzizdir

1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə şəhəri mühasirəyə aldılar. Xocalıya ən müasir silahlarla hücum çəkərək yerləyeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı, yandırıldı. Xocalıda olan özünümüdafiə qüvvələri son nəfərinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Ancaq qüvvələr nisbəti qeyri-bərabər idi. Erməni silahlıları mülki əhaliyə və özünümüdafiə dəstəsinə qarşı misli görünməmiş qəddarlıqlar etdilər. Onları xüsusi amansızlıqla qətlə yetirdilər.

Xocalı şəhəri işğala məruz qalanda burada şəhid verməyən ailə qalmadı. Ancaq Xocalısız qalmağın dərdlərin ən ağırı olduğunu deyirdi düşmənin yox etdiyi şəhərin sakini İsmayıl Cavadov: "Kaş ki, hər evdən iki şəhid verəydik, amma Xocalı əlimizdən getməyəydi". Ancaq düşmən bu qədər "mərhəmətli" olmamışdı. Plan Xocalı adlı yurdu Yer üzündən silmək idi. Xilas olmaq üçün şəhərdən qaçan əhalinin böyük hissəsi də erməni vəhşiliyindən qurtula bilmədi. Onların çoxu düşmən gülləsinə tuş gəldi, əsir götürüldü. Canını götürüb meşələrə qaçanlar da qışın sərt soyuğunun, şaxtasının zavalına gəldilər. Xocalı qətliamında başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılan və tanınmaz hala salınanlar erməni qəddarlığının hüdudsuz olduğunu göstərdi.

O vahiməli, soyuq fevral gecəsində baş verənlər azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı idi. Xocalı faciəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürüldü ki, onlardan 63-ü uşaq, 106-sı qadın, 70 nəfəri isə qoca idi. Bunların içərisində 8 ailə tamamilə məhv edildi, 27 ailənin yalnız 1 üzvü qaldı, 25 uşaq hər iki, 130 uşaq valideynlərindən birini, 230 ailə öz başçısını itirdi, 487 insan şikəst oldu (onlardan 76 nəfər həddi-buluğa çatmamışdı), 1275 insan əsir götürüldü, 1165 insan girovluqdan azad edildi, 197 nəfərin taleyi hələ də məlum deyil.






Dövlətin və əhalinin əmlakına 1 aprel 1992-ci il tarixinə olan qiymətlərlə 5 milyard rubl dəyərində ziyan vuruldu....

Fevralın 28-də yerli jurnalistlərin də olduğu qrup 2 helikopterlə azərbaycanlıların həlak olduqları yerə çatdılar. Düzənlik cəsədlərlə dolu idi. İkinci helikopterin havadan mühafizəsinə baxmayaraq, ermənilərin güclü atəşi altında yalnız 4 meyiti götürə bildilər. Martın 1-də hadisə yerində olan yerli və xarici jurnalistlər dəhşətə gəldilər: meyitlərin başının dərisi soyulmuş, qulaqları və digər orqanları kəsilmiş, gözləri çıxarılmış, çoxsaylı bıçaq və güllə yaraları almış, ağır texnika ilə əzilmiş, yandırılmışdı.

## Xocalılılar Xocalısız ölməkdən qorxurdular

1992-ci ilin fevralında erməni qəsbkarları Xocalı əhalisinin ürəyinə dağ üstdən dağ çəkdilər. O gecədən sağ çıxan xocalılılar əslində möcüzə nəticəsində düşmənin hücumundan qurtulanlar idi. Onlar heç vaxt ümidlərini itirmədilər. Hər zaman inandılar ki, erməni qəsbkarları özgə torpaqlarında binə qura, məskunlaşa bilməyəcəklər. Yaxın qohumları, qonşuları, dostları Xocalıda şəhid olmuş, evlərindən, isti ocaqlarından qovulmuş bu insanların ən böyük qorxusu Dağlıq Qarabağın erməni işğalından azad olunduğu günü görmədən ölmək idi.

İsmayıl Cavadov deyirdi ki, atam Kəriş Böyük Vətən müharibəsinin fəal iştirakçılarından olmuşdu: "O da Xocalıda güllə yarası aldı. Hamımız ölüm ayağında oradan çıxdıq. İtkilərimiz çox oldu. Onların dağı həmişə qəlbimizi göynədir. Ancaq dərdlərimizin ən ağırı Xocalısız qalmaqdı. Bu həsrətlə anam Səmayə 1996-cı ildə 73 yaşında, atam Kəriş 2003-cü ildə 75 yaşında vəfat etdilər. Ölümdən yox, Qarabağı bir də görməyəcəklərindən qorxurdular. Vəsiyyət etdilər ki, bizi Dağlıq Qarabağa apara bilməsəniz, heç olmasa Aran Qarabağda, Bərdədə dəfn edin".

## Həsrət bitdi

Ötən il 44 gün davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinə layiq olduqları məşğlubiyyəti yaşatdılar. Yağı düşmən işğal etdiyi Azərbaycan torpaqlarından qovuldu. Şəhidlərimizin qisası alındı. Yurdundan, elindən illərdir uzaq salınmış soydaşlarımız artıq qaçqın deyillər.

Həsrət bitdi, dərd isə qaldı. Xocalı soyqırımı yalnız Azərbaycan xalqının deyil, bütün bəşəriyyətin, insanlığın əbədi dərdi, yarası oldu. Tarix boyu bu ədalətsiz savaş unudulmayacaq.

BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş torpaqlarının qeyd-şərtsiz azad edilməsi barədə dörd qətnamə qəbul etsə də, işğalçı Ermənistan bunları yerinə yetirmir. Bu gün Ermənistanda mühüm dövlət postları tutanların çoxu baş vermiş soyqırımının günahkarlarıdır və onlar beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər. Xocalıda törətdikləri dəhşətli soyqırımına görə erməni işğalçıları layiqli cəzalarını almalıdır ki, bütün qəsbkarlar öz sonlarını, aqibətlərini görsünlər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Şəhid və qazilərin ailələri ziyarət edilir

Xocalının dəhşətləri zaman keçdikcə iliyə, qana hopur. O müdhiş il, ay, gün nəinki xocalılıların dünənki nəslinin, yəni soyqırımına şahid olanların, onlardan sonrakı nəslin də yaddaşına qanla yazıldığı üçün heç vaxt unudulmayacaq.

Daşnak, terrorçu, qaniçən erməni vandalları o müdhiş gecə və sonrakı günlərdə günahsız insanlara qəddarlıqla, amansızcasına əzab verib qətlə yetirdilər. "Sağ-salamat" qalanların, canını götürüb birtəhər qaçanların isə aldığı psixoloji və fiziki zərbələr zaman keçdikcə üzə çıxmaqdadır.

Ötən 29 il ərzində Xocalıdan canını salamat qurtaranlara dövlət, ictimaiyyət tərəfindən göstərilən diqqət və qayğı onların Qələbəyə, Xocalının qisasının alındığı günə inamlarını gündən-günə artırırdı. Nəhayət, 44 günlük Vətən müharibəsində torpağa qanları ilə "Qələbə" və "Qarabağ Azərbaycandır!" yazan oğullarımız Yer üzündən silinmiş Xocalının və qəddarlıqla, amansızlıqla, minbir işgəncə ilə qətlə yetirilən günahsız soydaşlarımızın da qanını aldılar.



Xocalı da Vətən müharibəsində öz oğullarını qurban verdi. Neçə-neçə xocalılı balası şəhid və qazi oldu. Onların ziyarətinə nəinki el-oba, həm də davamlı olaraq ictimaiyyətin nümayəndələri gəlməyi özlərinə borc bildilər. Ənənə bu gün də davam edir, çünki Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəxsi nümunə göstərdilər.

Xocalı Rayon Gənclər və İdman İdarəsinin rəisi Elməddin Bagirov və Xocalı şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndə Tacir Əzizov Vətən müharibəsində qəhrəmancasına şəhid olmuş Namiq Cavadovun və Tural Abdullayevin ailəsini ziyarət ediblər.

Daha bir tədbir fevralın 20-də Xocalı Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın təşkilatçılığı ilə keçirilib. İctimai Şuranın sədri Qalib Quliyev, Xocalı Rayon İcra Hakimiyyəti başçısının Kosalar kəndi üzrə nümayəndəsi Şahid Rzayev və nümayəndəliyin əməkdaşlarının iştirakı ilə Vətən müharibəsi şəhidi Ramazanlı Əlzamin Umud oğlunun Bərdə rayonunun Şirvanlı kənd qəbiristanlığındakı məzarı ziyarət edilib. Onlar "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Döyüşdə fərqlənməyə görə" medalları ilə təltif edilmiş igid döyüşçünün valideynlərinə, yaxınlarına başsağlığı verib, ailənin problemləri ilə maraqlanıblar.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Xarici jurnalistlər Xocalı soyqırımı dəhşətlərini şahidlərin dilindən dinləyiblər





Fevralın 25-də xarici media nümayəndələri işğaldan azad olunmuş Ağdam rayonuna səfər ediblər. Səfərdə məqsəd beynəlxalq medianın Xocalı soyqırımı haqqında daha ətraflı məlumatlandırılmasıdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, jurnalistlər əvvəlcə Ağdam şəhər məscidində olublar. Bildirilib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən sovet ordusundan qalmış 366-cı motoatıcı alayın hərbçilərinin və ağır texnikasının iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə yeksan ediblər. Azərbaycanın qədim Xocalı şəhərində həyata keçirilən bu soyqırımı nəticəsində 613 nəfər öldürülüb. Onlardan 63 nəfəri uşaq, 106-sı qadın, 70-i isə qoca idi. Səkkiz ailə tamamilə məhv edilib. Bundan əlavə, 1275 nəfər əsir götürülüb, 155 nəfərin taleyi indiyədək naməlumdur. Soyqırımı zamanı mülki insanlar, o cümlədən qadınlar və uşaqlar xüsusi qəddarlıq və amansızlıqla qətlə yetirilib, başları kəsilib, yaxud başlarının dərisi soyulub, gözləri çıxarılıb, hamilə qadınların bədənləri süngü ilə deşik-deşik edilib.

Məlumat verilib ki, Xocalı faciəsi qurbanlarının meyitləri o zaman Ağdam şəhər məscidinə gətirilir, burada yuyulur, kəfənlənir və dəfn olunmaq üçün yola salınırdı.

Ağdam Cümə məscidində məşhur fotoqraf Reza Deqatinin 1992-ci ildə Xocalı faciəsindən sonra çəkdiyi fotoların sərgi-təqdimatı keçirilib.

Fotoqraf Reza Deqati 1992-ci ildə Xocalı faciəsindən sonra Ağdam Cümə məscidində çəkdiyi və erməni vəhşiliyini əks etdirən fotoların tarixçəsi barədə media nümayəndələrinə məlumat verib. Bildirib ki, həmin dövrdə ermənilərin qətlə yetirdikləri insanları bu məscidə gətirirdilər: "Məscidin arxasında Xocalıdan çıxmış yüzlərlə adam toplaşmışdı. Meyitlər buraya gətirilirdi, hərə öz yaxınının cəsədini axtarırdı. Bu şəkildəki kişi isə oğlunu itirib. Üç gün burada əlində oğlunun fotosu onu axtarır. Bu fotodakı qadınlar məscidin qarşısına yığışaraq yaxınlarının meyitlərini axtarırlar. Qadınlardan biri oğlunun və həyat yoldaşının meyitini tapdı. Dedi ki, gözlərini çıxarıblar. Ermənilər onun gözlərini diri halda çıxarmışdılar".

Xocalıdan olan məcburi köçkün Məmməd Nağıyev 29 il əvvəl Xocalıda dinc sakinlərin başına gətirilən müsibətlərdən danışaraq deyib: "Xocalı faciəsi barədə danışmaq olduqca ağırdır. Həmin hadisələr zamanı mən əsir düşmüşəm və əsirliyin bütün əzab və iztirablarını yaşamışam. Biz Xocalıdan qaçıb Ağdama tərəf gedəndə Dəhraz kəndi yaxınlığında əsir götürüldük. Ermənilər Azərbaycan dilində bizi çağırıb aldatdılar. Biz onları azərbaycanlı zənn edib yaxınlaşanda atəş açdılar. Bizi əsir götürdülər. Əsirlərin dişlərini çıxartdılar, bəzilərini isə güllələdilər. Bir nəfərin başını kəsərək futbol topu kimi oynatdılar. Bütün bunlar olduqca dəhşətli idi".

Sonra xarici media nümayəndələri Xocalı sakinlərinin qətliam edildiyi, bir hissəsinin isə xilas olunduğu Şelli kəndi yaxınlığına gəliblər. Onlar burada 29 il əvvəl yaşanan dəhşətləri Xocalı sakinlərinin və xocalılıların azad olunmasında iştirak etmiş keçmiş döyüşçülərin dilindən dinləyiblər.

Bildirilib ki, erməni silahlı birləşmələri həm Xocalıda qırğınlar törədib, həm də mühasirədən çıxıb meşələrə, dağlara qaçmağa müvəffəq olmuş şəhər sakinlərini təqib edərək xüsusi amansızlıqla qətlə yetiriblər. Xilas olmaq üçün şəhəri tərk edib Ağdam istiqamətinə qaçan Xocalı sakinlərinin bir qisminin qarşısı Şelli kəndi yaxınlığında erməni silahlı dəstələri tərəfindən kəsilib və onlar vəhşicəsinə qətlə yetiriliblər.

Keçmiş döyüşçü Zahid Əliyev jurnalistlərə deyib: "Faciənin ertəsi günü Şelli istiqamətində 30 meyit, 15 yaralı götürdük, 280 nəfəri xilas edib Ağdama yola saldıq. Sonra irəliyə gedib daha böyük qətliamın törədildiyinin şahidi olduq. Hər tərəf Xocalı sakinlərinin meyitləri ilə dolu idi. Oradan 58 qadın, 2 kişi meyiti götürdük. Növbəti günlərdə isə ərazidən yüzlərlə cəsəd daşıdıq. Silahsız insanları vəhşicəsinə qətlə yetirmişdilər. Qadınların barmaqlarını, qulaqlarını kəsib, avtomobilin arxasına bağlayıb sürümüşdülər. Hamilə qadının qarnını yarıb uşağı çıxarmışdılar. Belə vəhşilik heç yerdə olmayıb".

Ağdam şəhərindəki Şəhidlər xiyabanına gələn media nümayəndələrinə məlumat verilib ki, Xocalı faciəsi zamanı qətlə yetirilənlərin bir qismi burada dəfn edilib. Lakin ermənilər Ağdam şəhərini işğal etdikdən sonra Şəhidlər xiyabanını da dağıdıblar.

Xarici jurnalistlər Ağdam rayonunun Qiyaslı kənd məscidində erməni vəhşiliyi ilə tanış olublar. Ermənilər XVIII əsrin yadıgarı olan məsciddən tövlə kimi istifadə edərək burada mal-qara saxlayıb, kəndi tərk edərkən isə bu tarixi-dini abidəni yandırıblar.

Ağdam şəhərindəki İmarət qəbiristanlığına gələn media nümayəndələrinə bildirilib ki, burada Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın və xanlıqda müxtəlif illərdə hakimiyyətdə olmuş hökmdarlar - İmrahimxəlil xanın və onun oğlu Mehdiqulu xanın qəbirüstü türbələri, həmçinin xanlığın sonuncu şahzadəsi Xurşidbanu Natəvanın məzarları olub. Qarabağ xanlarının nəslindən olmuş digər görkəmli şəxslər də bu qəbiristanlıqda dəfn edilib. Lakin Ağdam şəhəri işğal olunduqdan sonra Pənahəli xanın buradakı sarayı və qəbiristanlıq da erməni vandalizminə məruz qalıb.

Fotoqraf Reza Deqati jurnalistlərə bildirib ki, Pənahəli xanın soyundan olan Xurşidbanu Natəvan atası və digər ailə üzvləri ilə birlikdə Ağdam şəhərindəki XVIII əsrə aid kompleksdə dəfn edilmişdi. Ermənilər şəhəri ələ keçirməzdən əvvəl mən bu mədəni mərkəzə baş çəkmiş, məzar daşının və üzərində ucaldılmış heykəlin memarlıq üslubuna heyran olmuşdum. 2020-ci ilin noyabrında şəhər işğaldan azad edildikdən sonra mən yenidən həmin yerə qayıtdım. Natəvanın məzarının qazıldığını və sümüklərinin aparıldığını gördüm".

Ağdam şəhərinə səfər etmiş xarici jurnalistlərin bir neçəsi təəssüratlarını AZƏRTAC-ın bölgə müxbiri ilə bölüşüblər.

İtaliyanın AGİ xəbər agentliyinin əməkdaşı Cüzeppe Dionna deyib: "Xocalı faciəsi ilə bağlı əvvəllər məlumatım az idi. Buraya gəlməzdən əvvəl araşdırma apardım. İndi isə Xocalı sakinləri ilə söhbət etdim, faciə ilə bağlı daha çox məlumat öyrəndim. Böyük faciədir. Bu faciə unudulmamalıdır. Faciə ilə bağlı məlumatlar insanlara çatdırılmalıdır".

İraqın xəbər agentliyinin əməkdaşı, hərbi jurnalist Abbas Əl Ələvi bildirib: "Biz bu gün burada gördüklərimizdən sonra onu deyə bilərik ki, beynəlxalq təşkilatlar, insan haqları təşkilatları susmamalı, Ermənistana qarşı xüsusi tədbirlər görməlidirlər. Ölüm birdir. Lakin soyuqda ölmək, uşaq ikən ölmək, faciəvi şəkildə ölmək böyük günahdır, insanlığa qarşı cinayətdir. Təsəllimiz odur ki, Azərbaycanın işğal altındakı torpaqları azad edildi və şəhidlərin qanı yerdə qalmadı".

Türkiyədən gəlmiş jurnalist Əminə Kavasoğlu isə hisslərini bu cür ifadə edib: "Müharibə zamanı da burada idim. Kitablardan Xocalıda törədilənlər haqqında məlumatım var. Mülki insanların necə öldürüldüyünü bilirəm. Lakin bu torpağa gəlib həmin anları faciəni yaşayanların dilindən dinləmək çox acıdır. İyirmi doqquz il keçməsinə baxmayaraq, bu acı isti və təzədir. Amma artıq Azərbaycan xalqı bu torpaqlara gəlib burada dua edə bilir. Biz də türkük, qardaşıq. Bizim də canımız yanır. Xocalı qətliamı bir soyqırımıdır, unudula bilməz".

Səfərdə xarici media nümayəndələri ilə yanaşı, Srebrenitsada törədilmiş soyqırımının şahidləri də iştirak ediblər. Serbiya Anaları Birliyinin sədri Munira Subaşiç müsahibəsində deyib: "Mən Serbiyada olan hadisələrin qurbanıyam. 1995-ci ildə Serbiyada 22 yaxın qohumumu, o cümlədən həyat yoldaşımı və oğlumu itirmişəm. O vaxt özümə söz vermişdim ki, hadisə barədə hər yerdə danışacağam, səsim hər yerdə eşidiləcək. Həm Haaqa tribunasında, həm məhkəmələrdə, beynəlxalq təşkilatlarda öz səsimizi ucaltdıq. Həm Bosniya xalqı, həm də Azərbaycan xalqı eyni faciəni yaşayıblar. Burada insanlığa qənim kəsilib".

# Azərbaycan Sahibkarlar Konfederasiyası Niderland Krallığının ölkəmizdəki səfiri ilə görüşüb

25 fevral 2021-ci il tarixdə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Paulin Eizemanla görüşüb. Onlayn platforma üzərindən reallaşdırılan görüş Azərbaycan-Niderland iqtisadi əlaqələri və onun genişləndirilməsi mövzusuna həsr olunub.

Konfederasiyanın prezidenti qonağı salamlayaraq xanım Paulin Eizemana Azərbaycanda səfir kimi fəaliyyətinə uğurlar arzulayıb. M.Musayev Niderland-Azərbaycan münasibətlərindən danışarkən Prezident cənab İlham Əliyev ilə Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene van der Linden arasında mövcud olan dostluqdan, bu dostluğun Niderland-Azərbaycan münasibətlərinə müsbət təsirini xüsusilə qeyd edib.

"Azərbaycanla Niderland arasında ticarət əlaqələri mövcuddur, lakin hesab edirəm ki, istənilən səviyyədə deyil və birgə əməkdaşlığımız nəticəsində daha yüksək nəticələr əldə edə bilərik" deyə M.Musayev bildirib. Onun sözlərinə görə, Niderland Krallığı dəniz sahilindədir, aqrar ölkədir. Azərbaycan da aqrar sahədə böyük potensiala malik ölkədir və bir-birimizdən öyrənmək, təcrübə mübadiləsi aparmaq üçün əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda irriqasiya və digər sahələrdə əməkdaşlıq imkanları da genişdir.

Səfir Paulin Eizeman "2020-ci il Azərbaycan üçün uğurlu oldu, torpaqlarınızı işğaldan azad etdiniz. Ümid edirəm ki, əlaqələrimiz daha da genişlənəcək. Azad olunmuş torpaqlarda yenidənqurma işlərində yaxından iştirak etməyə çalışacağıq" deyərək bir neçə sahə üzrə işbirliyi imkanlarına toxunub. Səfir kənd təsərrüfatı, su təsərrüfatı, irriqasiya sistemləri, şəhərsalma üzrə Niderland şirkətlərinin Azərbaycanda çalışması perspektivlərindən söz açıb.

M.Musayev səsləndirdiyi təkliflərə görə səfirə təşəkkür edərək gələcəkdə ölkəmizdə Nidarland Ticarət Evinin açılması ilə bağlı təklifləri dəstəklədiyini, eyni zamanda Niderlandda Azərbaycan ticarət evinin açılmasının məhsulların tanıdılması baxımından müsbət rol oynayacağını vurğulayaraq, bununla bağlı Sahibkarlar Konfederasiyası olaraq Azərbaycan Hökuməti qarşısında məsələ qaldırmağa hazır olduğunu diqqətə çatdırıb.

Görüşdə əməkdaşlıq imkanları ilə bağlı proqramın hazırlanması qərara alınıb.

# Vaksinasiya edilənlərin sayının artması koronavirus infeksiyasının yayılmasının qarşısını alacaq

*Əvvəli 1-ci səh.*

Vətəndaşların məsuliyyətli olmaları bu təhlükəli virusun yenidən artmamasında əhəmiyyətli rol oynayır. COVID-19-a qalib gəlmək üçün hər kəs özünə və ətrafındakı insanlara qarşı diqqətli olmalı, maska taxmalı, sosial məsafəni gözləməli və gigiyena qaydalarına riayət etməlidir.

Hələ də can almaqda davam etsə də təhlükəli koronavirusun sonunun yaxınlaşması barədə ümidverici proqnozlar da söylənilir. Ancaq yalnız proqnozlar və ehtimallarla da kifayətlənilmir. Dünyanın əksər ölkələrində vaksinasiya prosesi davamlı olaraq həyata keçirilir. Azərbaycanda da yanvarın 18-dən başlayaraq COVID-19-a qarşı vaksinasiya aparılır. Ölkə üzrə peyvəndlənmə prosesi "Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası"na uyğun olaraq mərhələli şəkildə davam edir. Strategiyaya uyğun olaraq hazırda 50 yaş və daha yuxarı şəxslərin vaksinasiyası həyata keçirilir. Xatırladaq ki, 50 yaş və daha yuxarı şəxslər https://randevu.its.gov.az/ saytına daxil olaraq, "COVID-19 vaksin randevu" elektron xidmətindən istifadə etməklə koronavirus xəstəliyi əleyhinə vaksinasiya üçün onlayn qaydada növbə götürməlidirlər. Elektron xidmət vasitəsilə qeydiyyatdan keçməkdə çətinlik çəkən şəxslər ərazi üzrə poliklinikaya zəng edərək qeydiyyatçıya kimliyi barədə məlumat verməlidirlər. Bu zaman qeydiyyatçı həmin şəxslər üçün sözügedən elektron xidmət vasitəsilə onlayn növbənin götürülməsini təmin edir.

Səhiyyə Nazirliyinin açıqladığı son məlumatda bildirilib ki, bütün dünyaya yayılmış COVID-19 xəstəliyinə qalib gəlmək üçün qısa zamanda kollektiv immunitet qazanılmalıdır. Bu səbəbdən də vaksinasiya edilənlərin sayının artması ölkədə yayılan COVID-19 infeksiyasının qarşısını alacaq.

Fevralın 23-nə olan məlumata əsasən, ölkə üzrə 207 mindən artıq vətəndaş 1-ci doza, 35 mindən artıq vətəndaş isə 2-ci doza peyvəndi qəbul edib. Bu vaksinin yaratdığı immunitetin minimum müddəti bir ildir. Vaksinasiya mərhələsində COVID-19-dan maksimum qorunmaq, pandemiya şərtlərinə əməl etmək zəruridir. Mütəxəssislər onu da nəzərə çatdırırlar ki, vaksinasiya prosesi uğurla davam edir, indiyədək peyvənd olunanlarda ağırlaşma halları qeydə alınmayıb.

Azərbaycanda Çinin Sinovac şirkətinin istehsalı olan "Coronovac" peyvəndindən istifadə olunur. Mütəxəssislər bu vaksinin təhlükəsiz olduğu, fəsadlar yaratmadığını vurğulayırlar. Buna baxmayaraq, bütün dünyada koronavirusdan birdəfəlik xilas olmaq üçün elm adamları araşdırmalarını davam etdirirlər.

Ötən ilin sonları Böyük Britaniya, Cənubi Afrika və Braziliyada koronavirusun yeni növləri aşkarlanmışdı. Alimlər bunlardan bəzilərinin əsas növdən daha yoluxucu olduğunu açıqlamışdılar.

ABŞ-ın "Moderna" şirkəti koronavirusun Cənubi Afrika növünə qarşı yenilənmiş vaksin versiyasını inkişaf etdirdiyini və klinik tədqiqatlar üçün ABŞ Milli Səhiyyə İnstitutuna göndərdiyini diqqətə çatdırıb.

Şirkətin rəsmi saytında məlumat verilib: "Moderna" ilk Cənubi Afrikada təsbit edilmiş "B.1.351" olaraq bilinən "SARS-CoV-2" növünə qarşı inkişaf etdirdiyi "mRNA-1273.351" spesifik peyvənd namizədinin istehsalını tamamlayıb və 1-ci mərhələ klinik sınaqlar üçün Milli Səhiyyə İnstitutuna göndərilib".

Yenilənmiş vaksin artıq peyvənd olunmuş insanlar üçün gücləndirici rol oynamaqla yanaşı, koronavirusa yoluxmamış və peyvənd olunmamış şəxslərə də ilk peyvənd kimi vurula bilər. Yenilənmiş peyvəndin nə vaxt ümumi istifadəyə veriləcəyi barədə məlumat verilmir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*




# Ermənistanda hərbi qiyam başladı

## Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə caniləri indi Paşinyana qarşı çevriliş edirlər

*Əvvəli 1-ci səh.*







Paşinyan isə "Facebook" səhifəsindən açdığı canlı yayımda ölkənin baş qərargahının bəyanatını hərbi çevrilişə cəhd adlandırıb. Bundan sonra o, tərəfdarlarını meydana çıxmağa çağırıb: "Tərəfdarlarımızı elə indi Respublika meydanına çıxmağa dəvət edirəm. Vəziyyət çox gərgindir. Baş Qərargah rəisinin və onun birinci müavininin vəzifəsindən kənarlaşdırılması barədə qərar verdiyimi bilirsiniz. Bu qərarların səbəbini meydanda açıqlayacağam. İndi ən vacib vəzifə vətəndaş və xalq hakimiyyətini qorumaqdır".

Daha sonra baş nazir hökumət binasının qarşısında - Respublika meydanında toplanan tərəfdarlarının qarşısına çıxaraq çevriliş cəhdinin artıq nəzarəti altında olduğunu vurğulayıb. Baş verənlər üçün bütün məsuliyyəti öz üzərinə götürdüyünü, ancaq indiki vəziyyətdə cəmiyyətin yüksək rütbəli hərbçilərə müəyyən sualların olduğunu və bu suallardan qaçmağın mümkünsüzlüyünü bildirib. Hökumət rəhbəri məhz bu sualları onlara yönləndirdiyinə görə ordunun onu istefaya çağırdığını qeyd edib.

Hərbi çevriliş cəhdinə qarşı xalqı küçələrə çağıran Paşinyan yürüşə başlayıb. Oğlu da Nikol Paşinyanla birlikdə yürüşdə iştirak edib. Hakim "Mənim addımım" blokundan olan deputatlar və digər dövlət rəsmiləri də yürüşə qatılıb.

Günün sonunda isə baş nazir yürüşü dayandırdığını elan edərək tərəfdarlarını və siyasi qüvvələri məşvərətə çağıraraq deyib ki, biz xalqın mövqeyini təsbit etdik. On minlərlə insan bizimlə birlikdə Respublika meydanında oldu: "Mən hamıya daha bir "məxməri inqilab"ın olmayacağını vəd edirəm". Paşinyanın sözlərini tərəfdarları alqışlarla qarşılayıb.

### Keçmiş hərbi xunta da hərbçiləri dəstəkləyir

Bu arada sabiq prezidentlər Robert Koçaryan və Serj Sarkisyan da hərbçilərin qiyamını dəstəkləyərək Paşinyanı istefaya getməyə çağırıb. "Müharibəni uduzan hakimiyyət getməlidir. Bu, ilk növbədə milli dirçəlişimiz üçün lazımdır" deyə Koçaryan bəyan edib.

Azadlıq meydanında müxalif "Vətənin xilası uğrunda" hərəkatının tərəfdarları toplaşıblar. Ermənistanın baş naziri Nikol Paşinyana dəstək olaraq yürüş edən vətəndaşlar da oradan keçib gediblər. Hakimiyyət və müxalifət tərəfdarları arasında ilk qarşıdurmalar baş verib.

Müxalifətin "Vətənin xilası hərəkatı" yaydığı bəyanatında bildirir ki, silahlı qüvvələrin yüksək komandanlığının bəyanatını tam dəstəkləyir və alqışlayır, ölkənin təhlükəsizliyinin yeganə qarantına öz dəstəyini ifadə edir. "Paşinyan indi xalqı vətəndaş toqquşmasına və qan axıdılmasına sürükləmək istəyir. Bütün vətəndaşları bu rejimin təxribatına uymamağa, təmkin və soyuqqanlılıq nümayiş etdirməyə, ordunun və onun komandanlığının ətrafında birləşməyə çağırırıq" - bəyanatda deyilir.

### Parlament binası ətrafında barrikadalar qurulub

V.Manukyan qeyd edib ki, biz Paşinyanı xain və düşmən sayırıq. Biz onunla yalnız onun hakimiyyəti necə tərk edəcəyini müzakirə edə bilərik. Müxalifət lideri yekunda tərəfdarları parlament binası ətrafında barrikadalar qurmağa çağırıb.

Etiraf edək ki, aylardır davam edən etirazlar fonunda görünən budur ki, Ermənistan müxalifəti öz niyyətinə çata bilmir və buna görə də xalqı günahlandırmağa başlayıb. "Vətənin xilası hərəkatı"nın rəhbəri Vazgen Manukyana görə, baş nazirə inananlar problem qapılarını döyənə qədər dövlətin hansı yolla getdiyini anlamayan vətəndaşlardır.

Müxalifət lideri güc stukturları ilə bağlı da fikirlər səsləndirib: "İkinci sütun güc strukturlarıdır. Bunlar bəzən öz maraqlarından çıxış edərək dövlət vəzifələrini icra etdiklərinə inanan, Türkiyə-Azərbaycan proqramının mənafeyinə xidmət etdiklərinin fərqində olmayan polislər, Milli Təhlükəsizlik Xidmətinin əməkdaşlarıdır. Onlara qarşı sərt olmalıyıq, onları inandırmalı və həmişə onlara bir xilas yolu qoymalıyıq".

Manukyan Paşinyana güc verən üçüncü qüvvədən də danışıb: "Üçüncü qüvvə, parlamentdə Nikol Paşinyanın dayağı olan deputatlardır. Onlara qarşı sərt, inandırıcı olmalısan və həmişə onlara bir xilas yolu qoymalısan".

Manukyan qarşıda duran problemləri həll etməyin yollarından birinin də davamlı nümayişlər və qiyam olduğunu deyərək, müxalifəti şəhəri iflic etməyə çağırıb: "Ermənistan qaynamalı, nümayişlər hər gün keçirilməli, şəhər iflic olmalı, tətillər etməli, maşın konvoyları bütün Ermənistanı gəzməlidir. İnsanları etiraz etməyə, birləşməyə və birlikdə Nikol Paşinyanın dayandığı sütunları sındırmaq lazımdır. Bunun üçün iş, vaxt lazımdır. Ancaq "b" planı da var: hər an, istər bu gün olsun, istər bir həftədən, istərsə də on gündən sonra qiyam yolu ilə insanlar ildırım sürəti ilə hakimiyyəti almağa hazır olmalıdır".

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# Bir cənub şəhərində bir günlük qış

Təbiət bizi pis öyrədib. Baharı-yayı isti, payızı-qışı mülayim keçən ölkəmizdə havalar bir az, necə deyərlər, adət etdiyimiz çərçivədən çıxan kimi aləm dəyir bir-birinə. Və qəribəsi də budur ki, anormal havaların (istər həddən artıq istilər olsun, istərsə də adət etmədiyimiz şaxtalar) yaratdığı problemlərin bütün günahını yığıb-yığışdırıb atırıq yerli icra orqanlarının üzərinə.



Daha fikirləşmirik ki, təbiətin şıltaqlıqlarının, gözlənilməz və hətta gözlənilən sürprizlərinin qarşısında mənəm deyən ölkələr də bəzən aciz qalır. Elə bu günlər ABŞ kimi ölkədə qış üçün adi sayıla bilən şaxtadan 30-dan çox adamın həyatını itirməsini xatırlatmaq kifayət edər ki, təbiətin sınaqlarından çıxmağın asan olmadığına şübhə yeri qalmasın.



Fotolar İlham BABAYEVİNDİR



Amma bu o demək deyil ki, yerli icra orqanları "təbiətlə təbiətlik etməyəcəyik ki..." deyib əllərini ağdan qaraya vurmalı deyillər. Əks halda dövlət öz büdcəsindən külli miqdarda vəsait ayırıb onlara nə bu qədər maşın və texnika alar, nə də bu sayda işçi ştatı ayırardı. Bütün bunlar olunur ona görə ki, həm adi günlərdə, həm də ekstremal hava şəraitində ölkənin ahəngdar təsərrüfat və həyat ritmi maksimim dərəcədə təmin edilsin.

Fevralın 24-də bütün ölkə ərazisində güclü küləklə müşahidə edilən qarın yağması, havanın temperaturunun mənfi 5 dərəcədən aşağı düşməsi, avtomobil yollarının və piyada səkilərinin buz bağlaması, ictimai nəqliyyatın, demək olar, işləməməsi üzündən Bakının qış sınağına çəkildiyini yəqin ki, heç kəs inkar etməz. Biz hələ paytaxtın ayrı-ayrı ərazilərində elektrik enerjisinin kəsilməsini, təbii qazın təzyiqinin aşağı düşməsini yazıb vəziyyəti bir az da tündləşdirmək istəmirik, hərçənd hələ payız aylarından adları çəkilən xidmət təşkilatları qışa tam hazır olduqları barədə "raport" vermişdilər. Amma bunları bir yana qoyub belə qəbul edirik ki, bizim həm yerli icra orqanları, həm də kommunal xidmət təşkilatları Bakıda şaxtalı, qarlı, çovğunlu yox, adət etdiyimiz payızabənzər, müsbət temperaturlu qışa hazırlaşıblar.

Bəs özümüz necə, təbiətin iki gün əvvəlki sınağından çıxa bildikmi? Biz heç də işığı sönən mənzillərdə şam, qazları közərən evlərdə odun ehtiyatının yaradılmasını nəzərdə tutmuruq. Heç çovğunda işə məsafədən asılı olmayaraq piyada getməyi bacarmağa da işarə vurmuruq. Nəzərdə tutmaq, işarə vurmaq istədiyimiz odur ki, heç olmazsa hər birimiz yaşadığımız binanın, işlədiyimiz idarənin, ticarət və xidmət obyektlərinin qarşısını qardan, buzdan təmizləyək və bununla işçilərinin əksəriyyətinin yaşı 60-dan yuxarı və həm də qadın olan mənzil kommunal təsərrüfat birliklərinin əlindən tutaq. Axı, onların, hətta cavan olsalar belə, sayları imkan vermir ki, Bakı kimi meqopolisdə bütün binaların həyətlərini, küçə və prospektlərin səkilərini, təşkilat və obyektlərin qarşısını təmizləsinlər.

Bu qeydlərimizi yazarkən eşitdik ki, fevralın 24-də 70-ə yaxın paytaxt sakini sürüşüb yıxılaraq zədə aldığı üçün tibb müəssisələrinə müraciət edib. Halbuki belələrinin sayı minimum ola bilərdi, əgər səkilərin, həyətlərin qardan və buzdan təmizlənməsi yalnız kommunal işçilərindən gözlənilməsəydi. Söz düşmüşkən, deyirlər, Almaniyada qışda kim hansı ticarət, xidmət müəssisəsinin, yaxud ofisin qarşısında sürüşüb yıxılaraq zədə alırsa, onun müalicə xərclərini iş yerlərinin qarşısını buzdan təmizləmədikləri üçün həmin obyekt və ya təşkilatın sahibləri ödəyirlər. Özü də bu öhdəlik könüllü deyil, qanunla tənzimlənir.

Artıq ölkədə, o cümlədən paytaxtda havalar isinməyə başlayıb. Müsbət temperaturun köməyi ilə insanlar bir günlük qışın fəsadlarını aradan qaldırmaqla məşğuldur. Təəssüf ki, bu mənzərə ilə hər yerdə rastlaşmaq mümkün deyil. Hələ də ayağının altındakı buzun əriməsini Günəşin öhdəsinə buraxanlar az deyil. Elə ətrafında baş verənlərə bu cür soyuq münasibət bəsləyənlərin sayının az olmamasını nəzərə alıb deyirik ki, nə yaxşı ki, biz bir cənub şəhərində yaşayırıq.

**Raqif MƏMMƏDLİ,**
**"Azərbaycan"**




## Deyirəm nə ola...



Foto İlham BABAYEVİNDİR

Qar yağır
Hər yana,
Hər tərəfə -
Dağa-dərəyə,
Arana-düzə,
Şəhərə-kəndə.
Zülmət gecələr də
Bürünür süd
kimi
Bəmbəyaz gündüzə.
Hər tərəf
Qarla örtülür.
İtib-batır, yox
olur,
Qar altında qalır,
donur
Hər cür xoşa
gəlməyən
Çirkablar, natəmiz
görüntülər.
Deyirəm, nə ola,
Bir gün də bax
belə
Qar yağa
Bəzi-bəzi ürəklərə,
beyinlərə.
Şaxta vurub qovura,
quruda
Naqis düşüncələri,
Pis niyyətləri.

**Seyran CAVADOV,**
**"Azərbaycan"**

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzinin inzibati binasında sanitariya-epidemioloji işlərin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 12 fevral 2021-ci il qərarına əsasən "Sanitariya Epidemioloji Xidmətlər" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən Sumqayıt Şəhər İcra Hakimiyyətinin idarəçiliyinə aid şəhər ərazisində yerləşən körpələr evi və uşaq bağçalarının 2021-ci ilin müvafiq istilik mövsümündə istilik təchizatı üzrə iş və xidmətlərinin satın alınmasına dair 22 yanvar 2021-ci il tarixdə elan olunmuş açıq tenderin davamından "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq iştirak etmək üçün iddiaçıların sayı üçdən az olduğuna görə imtina edilir.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2021-ci ildə 222920 - "İstehlakyönlü müxtəlif xidmətlər" xərc maddəsi üzrə guşələrin yaradılması və bədii tərtibat işlərinin dəyərinin ödənilməsi, sənədlərin cildlənməsi və katriclərin doldurulmasının və 221100 - "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçiriləcəkdir.

LOT- 1. 222920 - "İstehlakyönlü müxtəlif xidmətlər" xərc maddəsi üzrə guşələrin yaradılması və bədii tərtibat işlərinin dəyərinin ödənilməsi, sənədlərin cildlənməsi və katriclərin doldurulmasının satın alınması.

LOT- 2. 221100 - "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqavilələri yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar hər bir LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Hər bir LOT üzrə iştirak haqqı: 200 manatdır.

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab № AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu 7y İqtisadi təsnifat 142330**
**VÖEN: 2900054881**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **05 aprel 2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanəti isə möhürlənmiş ikiqat zərfdə **13 aprel 2021-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **14 aprel 2021-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərpoçt" MMC tərəfindən "Poçt göndərişləri üçün karton bağlama qutuların" satın alınması üçün 29 yanvar 2021-ci il tarixdə elan edilmiş açıq tender üzrə malgöndərin elektron Portal vasitəsilə müraciəti nəzərə alaraq tender təkliflərı və təkliflərin təminatı sənədlərinin qəbulu 05 mart 2021-ci il saat 18:00-dək uzadılır. Tender üzrə təkliflərin açılışı 09 mart 2021-ci il saat 11:00-da keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi "Sumqayıt Kimya Sənaye Parkı" MMC Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar, 127.96 hektar ərazilərində və Pirallahı Sənaye Parkının 30 hektar ərazisində 2021-ci ilin yanvar-dekabr ayları üzrə əmlakın mühafizə olunması ilə bağlı iş və xidmətlərin satın alınması üçün təkliflər sorğusu keçirir

Təkliflər sorğusu iştirakçılarına təklif edilir ki, qiymət təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün iştirakçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Prosedurda iştirak etmək istəyənlər iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Əziz Nəzərov (telefon: 012-488-80-65)

**İştirak haqqı: 300 manat**
**Hh: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: "PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**Mh: AZ82NABZ01350100000000071944**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar təkliflər sorğusunda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *təkliflər sorğusunda iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *qiymət təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *qiymət təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddəti bitdikdən sonra 30 bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *rəhbər şəxsin (imza sahibinin) tutduğu vəzifəni təsdiq edən sənədin surəti;*
- *tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan təkliflər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Təkliflər sorğusu proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar prosedurda iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 04 mart 2021-ci il saat 13:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı formada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 04 mart 2021-ci il saat 15:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower"də yerləşən ofisində, iclas zalında açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***




## "Xocalıya ədalət!" kampaniyası çərçivəsində Lənkəranda 613 ağac əkilib



Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin sədri Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" beynəlxalq maarifləndirmə kampaniyası çərçivəsində Xocalı soyqırımında erməni faşistləri tərəfindən xüsusi qəddarlıqla öldürülmüş 613 şəhidin xatirəsinə ehtiram əlaməti olaraq Lənkəranda ağacəkmə aksiyası keçirilib.

Aksiya zamanı şəhərdəki idarə və təşkilatların kollektivlərinin, könüllülərin iştirakı ilə Heydər Əliyev prospektində 613 ədəd sərv və küknar ağacları əkilib. Karantin qaydaları gözlənilməklə əkilən ağaclar suvarılıb, onlara aqrotexniki qulluq göstərilib.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## "Azərişıq" ASC Müxtəlif dekorativ bitki və həmişəyaşıl qrupuna aid olan ağacların satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "Asan Ödəniş" vasitəsilə həyata keçirə bilər. Müsabiqəyə daxil olduqdan sonra "Asan Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

**LOT-1: Müxtəlif dekorativ bitki və həmişəyaşıl qrupuna aid olan ağacların satın alınması**
**İştirak haqqı - 800 manat**
**"Azərişıq" ASC**
**Hesab: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: Kapital Bankın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqələndirici şəxs - Emil Əliyev (telefon: 440-39-93 (daxili: 29-18))**
**emil.aliyev@azerishiq.az**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *malgöndərənin VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının Dövlət Statistika Komitəsindən sahibkarlıq kateqoriyası haqqında arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron Portal vasitəsilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Vergi Bəyannaməsi) (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tələb olunan mallar üzrə mənşə və uyğunluq sertifikatları (Müvafiq mallar üzrə rəsmi partnyor, distribüter və ya istehsalçının rəsmi təmsilçisi olduğunu təsdiq edən sertifikat və ya məktub (tender təklifi ilə bərabər təqdim olunsun));*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin əsli skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 mart 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **02 aprel 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **05 aprel 2021-ci il saat 11:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi "Haqqı ödənilən ictimai işlər portalı" proqram təminatının hazırlanması xidmətinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

| | |
|---|---|
| **İştirak haqqı:** | **500.00 (beş yüz) manat** |
| **Satınalan təşkilat:** | **Dövlət Məşğulluq Agentliyi** |
| **VÖEN:** | **1300144711** |
| **Bank:** | **Kapital Bank ASC 28 May filialı** |
| **KOD:** | **200123** |
| **Müxbir hesabı:** | **AZ37NABZ01350100000000001944** |
| **VÖEN:** | **9900003611** |
| **SWIFT** | **AIIBAZ2X** |
| **H/HESABI:** | **AZ47AIIB38060019440817168112** |

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir; 01.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (əgər təsdiq edilibsə 2020-ci üzrə, əks halda 2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir; 01.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (iddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmətlərin göstərilməsini həyata keçirməyə icazəni təsdiq edən lisenziyanın olması.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **29.03.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **06.04.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07.04.2021-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## *FHN:* Ötən sutka ərzində 16 nəfər xilas edilib

Ötən sutka ərzində Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında nazirliyin aidiyyəti qurumları tərəfindən 25 halda yanğına çıxış və 9 halda köməksiz vəziyyətdə qalma faktları üzrə qəza-xilasetmə əməliyyatları həyata keçirilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınların operativ söndürülməsi, insanların həyatının xilas olunması təmin edilib. Ümumilikdə sutka ərzində 16 nəfər xilas olunub.

Nazirlik əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.

## Vətən müharibəsi nəticəsində Gəncədə və Bərdədə psixoloji problemlər yaşayan vətəndaşlarımızın reabilitasiyasına başlanılır

Qırx dörd günlük Vətən müharibəsi nəticəsində psixoloji problemlər yaşayan qazilərimizin, o cümlədən doğmalarını itirmiş şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşlarımızın psixoloji reabilitasiyasının daha səmərəli təşkili məqsədilə Fövqəladə Hallar Nazirliyinin (FHN) dəvəti ilə qardaş Türkiyədən ölkəmizə gələn bir qrup peşəkar klinik-psixoloq və psixoterapevt fəaliyyətini davam etdirir.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazirliyin 112 - qaynar telefon xətti vasitəsilə psixoterapevtik yardım üçün qeydiyyata yazılmış vətəndaşlarımızdan bugünədək 520-dək şəxsə mütəxəssislər tərəfindən müvafiq yardım göstərilib.

Fevralın 26-dan etibarən Türkiyədən olan psixoloq mütəxəssislərin iştirakı ilə Bakı ilə yanaşı, Gəncə və Bərdə şəhərlərində də müharibədən və erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşlarımızın psixoloji reabilitasiyası işinə başlanılacaq. Ödənişsiz psixoloji yardım almaq üçün FHN-in 112 - qaynar telefon xəttinə zəng etmək lazımdır.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2021-ci il üçün mətbəə və çap məhsullarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 04 mart 2021-ci il saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən Yevlax rayonu ərazisində yaradılacaq pilot aqropark layihəsi üzrə tikintisi nəzərdə tutulan ərazilərdə torpaq və qrunt sularının analizlərinin aparılması işlərinin satın alınması məqsədilə müəyyən olunmuş vaxtadək iddiaçıların qiymət təklifləri təqdim edilmədiyi səbəbindən 17 fevral 2021-ci il tarixdə elan edilmiş kotirovka sorğusu prosedurunun davamından imtina edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin "avtomobil nəqliyyat vasitələri üçün sürtkü yağları"nın kotirovka üsulu ilə satın alınması üzrə 25 fevral 2021-ci il tarixli yekun protokoluna əsasən "Lubricants Supplier" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla 25 fevral 2021-ci il tarixdə müqavilə imzalanmışdır.

***Tender komissiyası***

***Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən 15 fevral 2013-cü il tarixdə Qüdrət Qəmbər oğlu Quliyevin adına Sığorta agenti fəaliyyətinə dair verilmiş 08055551nömrəli lisenziya itdiyi üçün etibarsız saylır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyevə əzizi

**MƏHƏMMƏD İSKƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri,*
*Mətbuat prospekti,*
*529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | |
|---|---|
| Qəbul otağı - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68, |
| Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82 |
| Məsul katib - 539-43-23, | İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri - 539-44-91, | Fotoillüstrasiya şöbəsi - 538-84-73, |
| Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi - 538-20-87, |
| İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55, | Mühasibatlıq - 539-59-33 |

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 5233**
**Sifariş 373**
**Qiymәti 40 qəpik**